# HƏDƏFƏ DOĞRU NÖVBƏTİ ADDIM




Xalq olaraq tarixi anlara şahidlik etməkdəyik. 2020-ci il müharibəsindən sonra Azərbaycanın suveren ərazilərinə yerləşdirilən Rusiya sülhməramlıları ölkəmizi tərk edir. Postsovet məkanında Azərbaycan yeganə ölkədir ki, Rusiya hərbi birləşmələrini iki dəfə beynəlxalq səviyyədə tanınan ərazilərindən çıxartmağa nail olub.

Müstəqilliyimizin ilk illərində Moskva ölkəmizə özünün keçmiş müstəmləkəsi kimi yanaşırdısa, indi vəziyyət tam fərqlidir. İki ölkə arasında bərabərhüquqlu tərəfdaşlıq və bir-birinin milli maraqlarını nəzərə alaraq məsələləri diplomatik danışıqlar yolu ilə həll etməyi hədəfləyən siyasi iradəyə əsaslanan ikitərəfli münasibətlər mövcuddur.

SƏHİFƏ 3-də

'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

www.kaspi.az

20 APREL ŞƏNBƏ 2024 № 14 (4165)

Qiyməti - 40 qəpik



## ÖMRÜ YARIDA, PULU HAVADA QALANLAR

Ölkəmizdə il ərzində vəfat edən kişilərin təxminən yarısı pensiya yaşına çatmayanlardır. Bu statistika yenidən pensiya yaşına çatmadan vəfat edənlərin pensiya kapitalının taleyi məsələsini gündəmə gətirir.

SƏHİFƏ 7-də




## ERMƏNİ MƏNTİQSİZLİYİ VƏ DÜNYA MƏNTİQİ

Qanunsuz pulların "yuyulması" ilə ad çıxarmış, separatçılığa dəstək verən Ruben Vardanyanın Nobel mükafatına namizəd irəli sürülməsi erməni xalqının növbəti tragikomediyasının təzahürüdür.

SƏHİFƏ 4-də




● Bağanis Ayrım
● Aşağı Əskipara
● Xeyrimli
● Qızılhacılı




# ƏDALƏTİN TƏNTƏNƏSİ

Azərbaycan danışıqlar yolu ilə Ermənistanı işğalda saxladığı Qazax rayonunun dörd kəndini geri qaytarmağa razı saldı. Ciddi xarici təzyiqlərə, təxribat cəhdlərinə baxmayaraq, əldə edilən bu nəticə Azərbaycanın və Prezident İlham Əliyevin növbəti qələbəsidir.

### DÖRD KƏNDİMİZ GERİ QAYTARILIR

Azərbaycan ərazilərinin işğal faktı anlayışı artıq rəsmən sıradan çıxmaq üzrədir. Uzun zamandır haqqında danışılan, Ermənistan tərəfindən hələ də işğal altında saxlanılan dörd kəndimizin qaytarılması ilə bağlı Bakı və İrəvan arasında mühüm razılıq əldə edilib. Bu kəndlər Azərbaycana qaytarılacaq.

### HEÇ BİR GÜLLƏ ATILMADAN...

Bu kəndlərin qan tökülmədən geri qaytarılması Ermənistanın qoşunlarını Ağdam, Laçın və Kəlbəcərdən eyni şərtlər daxilində çıxartması ilə başlayan siyasətin, qalib Prezident İlham Əliyevin, Azərbaycan dövlətinin növbəti qələbəsidir.

SƏHİFƏ 2-də

BAŞ REDAKTORDAN

## Qonşularımızı ağıllandırırıq

İlk dəfədir ki, Ermənistanı sivil yolla razılaşmağa sövq edə bildik... İlk dəfədir ki, qan tökülmədən özlərində cəsarət tapıb işğal etdikləri torpaqlardan çıxmaq qərarı verə bildilər. Düzdür, 44 günlük müharibədən sonra da işğal etdikləri Ağdam, Kəlbəcər və Laçından da çıxmaq məcburiyyətində qalmışdılar. Amma onda "dəmir yumruq" öz işini görmüşdü. Bu dəfə isə "dəmir yumruğ"un işə düşməsinə ehtiyac qalmadı.



Səhifə 2-də

İlham Quliyev

BİR KƏND UŞAĞININ UĞUR HEKAYƏSİ

## DİPLOMU 175 ÖLKƏDƏ KEÇƏRLİ OLAN AZƏRBAYCANLI



Bu hekayə kənd uşağının karyera yolundakı mübarizəsindən bəhs edir. O, Texas Universitetində "Fellowship" təqaüdünü qazanan ilk azərbaycanlı dənizçi kimi tanınıb. Böyük zəhmətlə əldə etdiyi nailiyyətini başa vurmadan, yarımçıq qoymaq məcburiyyətində qalıb. Amma bu, onun üçün son deyildi. Mübarizəyə sıfırdan başlayır və dənizçilik təhsilini İsveçdə tam təqaüdlə qəbul olduğu Dünya Dənizçilik Universitetində davam etdirir. "Örnək" rubrikasının müsahibi dənizçi Emin Sədirovdur.

SƏHİFƏ 8-9-da



## İSTEHSALIN İDXALI ÜSTƏLƏDİYİ SAHƏ

Azərbaycanda mebel istehsalı sahəsində yerli bazarın inkişafı idxal statistikasının azalmasına səbəb olub. Müşahidələr göstərir ki, müştərilər artıq yerli mebellərə daha çox üstünlük verməyə başlayıblar.

SƏHİFƏ 11-də



## ADAMI BATIRMAYAN DƏNİZ

Ölü dənizin İordaniya sahili unikal iqlim qoruğunda yerləşdiyi üçün təbii müalicəvi kurort hesab olunur. Suyun və müalicəvi palçığın unikal xüsusiyyətləri buranı tanınan sağlamlıq mərkəzinə çevirib.

SƏHİFƏ 13-də



## "MƏN OLMASAM SİZ NƏ EDƏCƏKSİNİZ?"

Onlarla tamaşaya quruluş verən rejissor, teatrlarda səhnəyə çıxan, filmlərdə və teletamaşalarda uğurla çəkilən aktyor Həsən Əbluc yaddaşlarda yaşayır. Qızı Elnaz Əbluc atası ilə bağlı xatirələrini bölüşür.

SƏHİFƏ 15-də



İsrail İranı iki istiqamətdə cəzalandıracaq

SƏHİFƏ 6-da



Tıxaclı Bakı bizə keçən əsrdən əmanətdir

SƏHİFƏ 10-da



Bu il keçid balları necə olacaq?

SƏHİFƏ 12-də



Yaz gəldi, allergiya da kükrədi

SƏHİFƏ 14-də



Bundesliqanın məğlubiyyətsiz çempionu

SƏHİFƏ 16-da

ÜÇ ƏSRİN QƏZETİ Kaspi





BAŞ REDAKTORDAN
İlham Quliyev
ilhamquliyev@kaspi.az

# Qonşularımızı ağıllandırırıq

**Onlara başa saldıq ki, artıq regionda işğal dövrünün qayda-qanunları işləməyəcək. Xəstə təfəkkürlə, tarix sərsəmləmələri ilə ürəkləri istəyənə əl qoymaq dövrü arxada qalıb.**

İlk dəfədir ki, Ermənistanı sivil yolla razılaşmağa sövq edə bildik... İlk dəfədir ki, qan tökülmədən özlərində cəsarət tapıb işğal etdikləri torpaqlardan çıxmaq qərarı verə bildilər. Düzdür, 44 günlük müharibədən sonra da işğal etdikləri Ağdam, Kəlbəcər və Laçından da çıxmaq məcburiyyətində qalmışdılar. Amma onda "dəmir yumruq" öz işini görmüşdü. Bu dəfə isə "dəmir yumruğ"un işə düşməsinə ehtiyac qalmadı. Nəhayət ki, anladılar. Anladılar ki, özgə atına minən tez düşər. Anladılar ki, Azərbaycanın olanı əllərində saxlamaq şansları yoxdur. Bütün dünyanı köməyə çağırsalar da, xeyri olmayacaq. O kəndlər onsuz da qaytarılacaq.

### BİZ BUNU BACARDIQ

Yaxın tarix göstərir ki, erməniləri danışalar yolu ilə, sivil qaydada nəyəsə razı salmaq heç də asan deyil. Amma biz bunu bacardıq, Prezident İlham Əliyev bunu bacardı! Bu prosesdə biz bir növ qonşularımızı da tərbiyələndirdik. Başa saldıq ki, ağıllı olmaq lazımdır, başqalarının haqlarına hörmətlə yanaşmaq lazımdır, səhv edəndə onu etiraf etmək əskiklik deyil. Başa saldıq ki, artıq regionda işğal dövrünün qayda-qanunları işləməyəcək. Xəstə təfəkkürlə, tarix sərsəmləmələri ilə ürəkləri istəyənə əl qoymaq dövrü arxada qalıb. Ya sivil oyun qaydalarını qəbul edəcəklər, ya da onları buna məcbur edəcəyik.

### REGİON ÜÇÜN SÜLH İSTƏYİRİK

Bəli, bütün dünya üstümüzə gəlsə də, haqlı mövqeyimizdən geri çəkilmədik. ABŞ-si, Fransası "Azərbaycan Ermənistana hücum etməyə hazırlaşır", - deyə haray-həşir saldıqları zaman biz qonşularımızı dialoqa dəvət etdik, onlarla danışdıq və anlaşdıq.

Biz bir daha göstərdik ki, başqa torpaqlarda gözümüz yoxdur. Kifayət qədər güclü olsaq da, qan tökülməsində maraqlı deyilik. 30 il torpaqlarımızın işğalda saxlanılmasına, kəndlərimizin, şəhərlərimizin yer üzündən silinməsinə baxmayaraq, sülhdən yanayıq. Region üçün sülh istəyirik.

### HEÇ BİR VASİTƏÇİSİZ RAZILAŞMA

Razılaşmanın heç bir vasitəçisiz, iki tərəf arasında aparılan danışıqlarda əldə edilməsi də xüsusi sevindirici məqamdır. Bu, gələcəkdə sülh prosesinin hansı istiqamətdə irəliləyəcəyi ilə bağlı da ip ucları verir.

Hamımızı təbrik edirəm!

Ölkəmiz, bütövlükdə Cənubi Qafqaz regionu üçün xeyirli olsun!



# ƏDALƏTİN TƏNTƏNƏSİ

Azərbaycan danışıqlar yolu ilə Ermənistanı işğalda saxladığı Qazax rayonunun dörd kəndini geri qaytarmağa razı saldı. Ciddi xarici təzyiqlərə, təxribat cəhdlərinə baxmayaraq, əldə edilən bu nəticə Azərbaycanın və Prezident İlham Əliyevin növbəti qələbəsidir.

Azərbaycan ərazilərinin işğal faktı anlayışı artıq rəsmən sıradan çıxmaq üzrədir. Uzun zamandır haqqında danışılan Ermənistan tərəfindən hələ də işğal altında saxlanılan dörd kəndimizin qaytarılması ilə bağlı Bakı və İrəvan arasında mühüm razılıq əldə edilib.

### RAZILAŞMADA NƏLƏR VAR?

2024-cü il aprelin 19-da Azərbaycan və Ermənistan arasında sərhəddə müvafiq komissiyaların səkkizinci görüşü keçirilib. Görüş zamanı komissiyalar aşağıdakılar barədə razılığa gəliblər:

• Delimitasiya prosesinin ilkin mərhələsində tərəflər sərhəd xəttinin ayrı-ayrı hissələrinin Sovet İttifaqı çərçivəsində onun süqutu dövrünə mövcud olduğu hüquqi cəhətdən əsaslandırılmış respublikalararası sərhədə uyğun olaraq Bağanis (ER) - Bağanis Ayrım (AR), Voskepar (ER) - Aşağı Əskipara (AR), Kirants (ER) – Xeyrimli (AR) və Berkaber (ER) - Qızılhacılı (AR) yaşayış məntəqələri arasında bilavasitə keçməsini razılaşdırıblar.

• Qərara alınıb ki, sərhəd xəttinin bu hissələrinin təsviri koordinatları yerdəki geodeziya ölçmələrinə əsaslanaraq dəqiqləşdirilməsi nəzərə alınmaqla tərtib edilsin və bu, tərəflər arasında 15 may 2024-cü il müddətinədək müvafiq protokol-təsvirlə sənədləşdirilərək razılaşdırılmalı və imzalanmalıdır.

• Razılaşdırılıb ki, tərəflər sərhəd xəttinin razılaşdırılmış hissələrində öz sərhəd xidmətlərinin eyni vaxtda və paralel yerləşdirilməsi üçün tədbirlər görmək məqsədilə öz hökumətlərinə müraciət edəcəklər. Həmçinin razılaşdırılıb ki, delimitasiya prosesi tam başa çatana qədər protokol-təsvirdə göstərilən sərhəd xəttinin hissələri delimitasiya edilmiş hesab olunsun.

• Paralel olaraq, Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi üzrə Komissiyanın Birgə fəaliyyəti haqqında Əsasnamə layihəsinin razılaşdırılması üzrə işin 1 iyul 2024-cü il müddətinədək başa çatdırılması və dövlətdaxili razılaşdırmalar prosesinə və müvafiq qaydada tərəflərin dövlətlərinin qanunvericiliyinin tələblərinə uyğun olaraq Əsasnamənin təsdiqinə başlamaq barədə razılığa gəlinib.

• Tərəflər razılaşıblar ki, onlar delimitasiya prosesində 1991-ci il Alma-Ata Bəyannaməsinə əsaslanacaqlar. Tərəflər, həmçinin həmin baza prinsipini Əsasnamə layihəsində təsbit etmək barədə razılığa gəliblər (əgər gələcəkdə Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin qurulması haqqında Sazişdə başqa cür qərara gəlinərsə, o zaman Əsasnamənin müvafiq bəndi bu Sazişlə müəyyənləşdirilmiş prinsiplərə uyğunlaşdırılacaq).

• Tərəflər Əsasnaməni təsdiq etdikdən sonra növbəliliyi razılaşdırmaq və sərhədin bütün digər hissələrinin, o cümlədən anklav və eksklav məsələləri üzrə delimitasiya prosesini davam etdirmək barədə razılığa gəliblər.

Görüşün nəticəsində protokol imzalanıb. Növbəti görüşün keçirilməsi tarixinin və yerinin işçi qaydada razılaşdırılması qərara alınıb.

## QAN TÖKÜLMƏDƏN, HEÇ BİR GÜLLƏ ATILMADAN...

Qeyd edək ki, bu kəndlərin qan tökülmədən, heç bir güllə atılmadan geri qaytarılması hələ 2020-ci ilin 10 noyabrında kapitulyasiyaya imza atmaq məcburiyyətində qalan Ermənistanın qoşunlarını Ağdam, Laçın və Kəlbəcərdən eyni şərtlər daxilində çıxartması ilə başlayan siyasətin, qalib Prezident İlham Əliyevin, Azərbaycan dövlətinin növbəti qələbəsidir.

ÜÇ ƏSRİN QƏZETİ Kaspi






# HƏDƏFƏ DOĞRU NÖVBƏTİ ADDIM

Artıq müstəqil Azərbaycan dövlətinin suveren ərazilərində yad ölkələrin heç bir hərbi birləşməsi olmayacaq. Rusiya sülhməramlı qüvvələri ölkəmizi tərk etməyə başlayıb. Özü də vaxtından əvvəl...



**AZAD ƏLİYEV**
azad.eliyev@kaspi.az

Xalq olaraq tarixi anlara şahidlik etməkdəyik. 2020-ci il müharibəsindən sonra Azərbaycanın suveren ərazilərinə yerləşdirilən Rusiya sülhməramlı qüvvələri artıq ölkəmizi tərk etməyə başlayıb. Özü də vaxtından əvvəl...

### BİRİNCİDƏ İTİRDİK, İKİNCİDƏ İSƏ...

Son 30 ildə postsovet məkanında Azərbaycan yeganə ölkədir ki, Rusiyaya məxsus hərbi birləşmələri iki dəfə beynəlxalq səviyyədə tanınan ərazilərindən çıxartmağa nail olub. Əgər müstəqilliyimizin ilk illərində Rusiya hərbi bazalarının çıxarılması ərazilərimizin işğalı, bir milyondan artıq qaçqın və məcburi köçkün ordusunun yaranması hesabına başa gəldisə, budəfəki prosesdə qeyd olunanların tam əksinin şahidi olduq. Artıq ölkəmizdə separatizm və etnik qarşıdurma təhlükəsi sıfırlanıb. Ərazilərimiz işğaldan tam azad edilib, sərhədlərimiz bütövləşib. Azərbaycan suveren ərazilərində qanunun aliliyinin təmin edilməsində üçüncü qüvvələrin yardımına ehtiyac duymur. Təbii ki, 30 il əvvəlki ilə indiki Rusiya arasında elə də ciddi fərq yoxdur. Sovet İttifaqının dağılması, ərazisində müharibənin getdiyi o zamanın Rusiyası ilə Ukraynada müharibəyə cəlb edilən indiki Rusiyanın düşdüyü beynəlxalq vəziyyət eynidir. Dəyişən sadəcə Azərbaycandır, xalqın müdrik seçimi, həmrəyliyi və müzəffər Ali Baş Komandana, dahi liderə sahib olmasıdır.

### KREMLİN DƏYİŞƏN BAXIŞI

Əgər müstəqilliyimizin ilk illərində Moskva ölkəmizə özünün keçmiş müstəmləkəsi kimi yanaşırdısa, indi vəziyyət tam fərqlidir. İki ölkə arasında qarşılıqlı hörmət, bərabərhüquqlu tərəfdaşlıq və bir-birinin milli maraqlarını nəzərə alaraq məsələləri diplomatik danışıqlar yolu ilə həll etməyi hədəfləyən siyasi iradəyə əsaslanan ikitərəfli münasibətlər mövcuddur. Alınan qərarlar məhz bu prinsiplərə söykənir. Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin də vurğuladığı kimi "2020-ci il noyabrın 10-da imzalanmış Üçtərəfli Bəyanata əsasən, Azərbaycan Respublikasının ərazisində müvəqqəti olaraq yerləşdirilmiş Rusiya Federasiyası sülhməramlılarının ölkəmizin ərazisindən vaxtından əvvəl çıxarılması barədə hər iki ölkənin ali rəhbərliyi tərəfindən qərar qəbul edilib. Artıq proses başlanılıb, Azərbaycan və Rusiya Müdafiə nazirlikləri həmin qərarın icrası ilə bağlı müvafiq tədbirləri həyata keçirirlər".

### BAKININ SİYASİ İRADƏSİ

Təbii ki, 2020-ci ildə əldə edilmiş tarixi zəfərdən sonra ölkəmizin qarşısında dayanan başlıca vəzifə bütün ərazilərimiz üzərində suverenliyimizin tam təmininə nail olmaq idi. Rusiya sülhməramlıları bu istiqamətdə başlıca əngəllərdən biri kimi dəyərləndirilirdi. Bir neçə il əvvəl geosiyasi və beynəlxalq məqamları nəzərə alan rəsmi Bakı rus sülhməramlılarının ərazimizdə müvəqqəti yerləşdirilməsinə razılıq verdikdə müəyyən tənqid hədəflərinə də tuş gəlirdi. Lakin keçən müddət ərzində biz tamamilə başqa mənzərənin şahidi olduq. Mövcudluqları zamanı istər separatçılarla yaxın münasibətlərin qurulması, istərsə də qanunsuz silah daşımaları ilə bağlı iradlar ən ali səviyyədə açıq şəkildə bəyan edildi. Həyata keçirilən "Qisas", Fərrux əməliyyatları, Laçın yolunda gömrük nəzarət postunun qurulması hələ o zamandan Bakının siyasi iradə və qətiyyətinin göstəricisi kimi dəyərləndirildi. Zaman göstərdi ki, Azərbaycan qarşısına qoyduğu hədəflərə addım-addım, səbirlə, lakin inam və qətiyyətlə addımlayır. Unutmayaq ki, rus sülhməramlılarının Qarabağda yerləşdirilməsini nəzərdə tutan üçtərəfli bəyanatda konkret müddətin əksini tapması məhz İlham Əliyevin israrı və qətiyyəti nəticəsində mümkün olmuşdu.

## DÜNYANIN HESABLAŞDIĞI LİDER

Bir reallığı da xüsusi qeyd etməliyik. Azərbaycan tam müstəqil siyasət yürüdür və heç bir qüvvə onun iradəsinə, mövqeyinə təsir edə bilməz. Qərb aləminin Ermənistana tam dəstəyini ifadə etdiyi Brüssel görüşü ərəfəsində dünyanın ən böyük dövlətini faktiki olaraq idarə edən ABŞ dövlət katibi Antoni Blinkenin Azərbaycan Prezidenti İlham Əliyevə zəng edərək məsələni müzakirə etməsi, ardınca dünyaya meydan oxuyan Rusiya Prezidenti Vladimir Putinin sülhməramlı qüvvələrin ölkəmizdən dinc şəkildə çıxması ilə razılaşması Azərbaycanın dövlət başçısının beynəlxalq aləmdəki nüfuz və təsir imkanlarının, avtoritetinin göstəricisidir.




## "NƏYİ, NECƏ, NƏ VAXT ETMƏK LAZIMDIR, BUNU MƏN BİLİRƏM"

Bəli. Artıq Azərbaycanın istər qonşu, istərsə də beynəlxalq səviyyədə ayrı-ayrı dövlətlərlə qarşılıqlı münasibətlərinə mənfi təsir göstərən Qarabağ problemi mövcud deyil. Bu problemin aradan qalxması regional əməkdaşlıq, sülh və sabitliyin təmini yoluna da yaşıl işıq yandırıb. Prezident İlham Əliyevin uzaqgörən siyasətinin nəticəsi olaraq meydana çıxan bu reallıq özlüyündə problem kimi görünən digər məsələlərin də təmkin və qarşılıqlı əməkdaşlıq fonunda həllinə imkan verib. Elə Rusiya sülhməramlı qüvvələrinin Azərbaycandan çıxarılması prosesinə başlanılması kimi. Azərbaycan xalqı 30 illik münaqişənin yaratdığı çətinliklərin üç il kimi qısa bir müddətdə ardıcıl olaraq milli maraqlarımıza, təhlükəsizliyimizi təhdid edən çağırışlara cavab olaraq ortadan qaldırılmasının əyani şahididir. Bu xronoloji ardıcıllıq Azərbaycan Prezidentinin məşhur "nəyi, necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm" bəyanatının əməli addımlarla nə dərəcədə uzlaşdığını, zərgər dəqiqliyi ilə üst-üstə düşdüyünün isbatıdır. Artıq müstəqil Azərbaycan dövlətinin suveren ərazilərində yad ölkələrin heç bir hərbi birləşməsi olmayacaq. Bu reallıq dünyanın ayrı-ayrı ölkələrindən rus hərbçilərinin çıxmasını israrla tələb edən, hansısa ölkəyə hərbi müdaxilə zamanı Moskvaya qarşı ardıcıl sanksiya qərarları verən ABŞ, ermənidən daha çox erməni olmağa çalışan Fransa və digər Qərb dövlətləri, eləcə də tarixi qələbələrimizə hər vəchlə kölgə salmaq istəyən sapı özümüzdən olan baltalara ən layiqli cavabdır.

RUBEN VARDANYAN ƏDALƏT MƏHKƏMƏSİNDƏN QAÇA BİLMƏYƏCƏK

# ERMƏNİ MƏNTİQSİZLİYİ VƏ DÜNYA MƏNTİQİ




Ermənilər cinayətkar Ruben Vardanyanın namizədliyini Nobel mükafatına irəli sürməklə diqqəti ona yönəldə biləcəklərinə ümid edə bilərlər. Ancaq cinayətkarın Azərbaycanın ədalət mühakimsindən qurtula biləcəyinə ümid etmək ermənilərin və himayədarlarının növbəti xülyasıdır.



RÜSTƏM QARAXANLI

Qanunsuz pulların "yuyulması" ilə ad çıxarmış, Azərbaycan ərazisində qanunazidd fəaliyyət göstərən cinayətkar xuntanın "rəhbərliyi"ndə təmsil olunaraq separatçılığa dəstək verən Ruben Vardanyanın Nobel mükafatına namizəd irəli sürülməsi erməni xalqının növbəti tragikomediyasının təzahürüdür. Bir qrup şəxs və qurumun təşəbbüskarı olduğu bu avantüranın əsas niyyəti Nobel mükafatı deyil, Vardanyanı Azərbaycanın ədalət mühakiməsindən "xilas" etməkdir. Bioqrafiyasının böyük hissəsi şübhəli maliyyə əməliyyatları ilə dolu olan bir şəxsin belə bir nüfuzlu mükafata namizəd kimi irəli sürülməsi qeyri-ciddi addım olmaqla yanaşı, həm də istehza doğurur. Təşəbbüsə imza atanların arasında vaxtilə Nobel mükafatına layiq görülmüş şəxslərin olması avantüraya əlavə sarkazm çalarları qatır.

### "ÖLÜM TACİRİ" VƏ ERMƏNİ ÇİRKLİ PULLAR MÜTƏXƏSSİSİ

Həyatını qanunsuz pullara qanuni don geyindirməyə həsr etmiş fırıldaqçının, dünya irsinin qorunmasına heç bir töhfəsi olmayan, yalnız erməni saxtakarlığının məhsulu olan "kilsə təmiri"nə vəsait ayırmış şəxsin Nobel sülh mükafatına namizəd görülməsi gülüş doğurur. Özü də yalnız bizdə deyil. Əsas kapitalını Bakı nefti hesabına toplamış Nobelin adını daşıyan nüfuzlu mükafat və Azərbaycana qarşı cinayət əməlləri törətmiş, qaranlıq fəaliyyətlə ad çıxarmış erməni milyonçu...

Əslində, sözügedən mükafatın tarixində belə qeyri-ciddi misallar az deyil. Nitroqliserinin diatomitə hopdurulması ilə hazırlanan partlayıcı növü - dinamiti kəşf etməklə "ölüm taciri" adını almış Alfred Nobelin təsis etdiyi mükafatın tarixi belə ciddiyyətdən kənar namizəd və qaliblərlə boldur. 1901-ci ildə fransız şair Arman Sülli-Pridom sınmış gül qabı haqqında şerinə görə Nobelə layiq görülüb. Alternativi olan Lev Tolstoy isə əliboş qalıb. Tolstoy düz altı il dalbadal bu ada irəli sürülsə də, arzusuna çatmayaraq bir daha namizəd görülməkdən imtina edib.

1973-cü ildə ABŞ-nin sabiq dövlət katibi Henri Kissincerlə Şimali Vyetnamın lideri Le Dık Txo "Vyetnam müharibəsinə son qoyduqlarına görə" bu ada layiq görülüblər. Ancaq müharibə hələ iki il davam edib, onminlərlə qətlə səbəb olub və yalnız 1975-ci ildə bitib. 1976-cı ildə Nobelə layiq görülmüş məşhur iqtisadçı Milton Fridman bundan bir il öncə çilili diktator, əlləri minlərlə dinc sakinin qanına batmış Aqusto Pinoçetə məsləhətlər verib. 2000-ci ildə İsveçrə parlamentinin deputatı qarət məqsədi ilə dörd nəfəri qətlə yetirmiş, cinayətkar qrupun başçısı, "Tuki" ləqəbli Stenli Uilyamsın namizədliyini Nobel mükafatına irəli sürüb. Özü də bir dəfə deyil - düz doqquz il dalbadal. Səbəb? Ağlı başına həbsxanada gələn Uilyams dəmir barmaqlıqlar arxasında uşaq kitabları yazmağa başlayıb və hətta "ABŞ prezidenti mükafatı"na layiq görülüb (!?).



### "ƏRƏB BAHARI" VƏ OBAMA

2009-cu ildə Nobel mükafatını eks-prezident Barak Obamaya veriblər. Bütün dünya bilir ki, ABŞ-nin "Ərəb baharı" adını almış və yüzminlərlə həyata bais olmuş geosiyasi oyunu məhz Obamanın dövründə gerçəkləşdirilib. Liviyanın bombalanması, Suriyada silahlı müxalifətə dəstək göstərilməsi, Bin Ladenin məhkəməsiz aradan götürülməsi Obama hakimiyyətinin "nailiyyətlər"idir. Təsadüfi deyildir ki, Nobel sülh komitəsinin o vaxtkı sədri Tornbörn Yaqland sonra deyəcəkdi: "Obamaya səs verərkən komitə üzvləri sanki sərxoş idilər".

Nobel mükafatının tarixi belə istehza və ikrahdoğurucu misallarla boldur. Biri də olsun Ruben Vardanyanın namizədliyi ilə bağlı. Ermənilər bu yolla diqqəti Vardanyana yönəldə biləcəklərinə ümid edə bilərlər. Ancaq cinayətkarın Azərbaycanın ədalət mühakiməsindən qurtula biləcəyinə ümid etmək ermənilərin və himayədarlarının növbəti xülyasıdır.

## MƏNTİQLƏ DOSTLUQ ETMƏYİ XOŞLAMAYAN XALQ

Ermənilərin bir xalq olaraq məntiqlə dostluq etmədikləri sirr deyil. Öz başlarına açdıqları bəlaların da əsas səbəbi budur. Bu, artıq başqa məsələdir ki, erməni yalanları və məntiq kasadlığına dünyada inananlar, daha dəqiqi, bundan yararlananlar var. Müasir Ermənistanın Azərbaycan torpaqlarına iddialarının heç vaxt hüquqi və tarixi əsası olmayıb. Bu xalq gah Qərbin - Avropanın, gah da Rusiyanın əlində türklərə və müsəlman dünyasına qarşı dəyənək olmaqla başqalarına məxsus olanları qoparmaq, özününküləşdirmək istəyib.

30 il ərzində dünya Ermənistanın Azərbaycan torpaqlarını işğal faktına göz yumub. Beynəlxalq hüququn tələb və prinsiplərinin məntiqinə qarşı çıxmaqla.

Keçmiş SSRİ-nin bir respublikasından o vaxtkı konstitusiyaya zidd olaraq digərinin tərkibinə keçmək istəyən separatçılar bunun mümkünsüzlüyünü görüb yarıyolda özlərini "müstəqil" elan ediblər. Buna baxmayaraq, Azərbaycanın suveren ərazilərinin bu parçasının Ermənistana "məxsusluğu" hələ də bu ölkənin konstitusiyasında öz əksini tapır. Keçmiş Azərbaycan SSR-in vətəndaşı olan, özlərini separatçı qurumun "liderləri" elan edən şəxslər müasir Ermənistan qanunvericiliyinin tələblərinə zidd olaraq, bu ölkənin başına keçiblər. Beynəlxalq vasitəçilər - BMT TŞ-nin üç daimi üzvünün moderatorluğu ilə 30 il boyunca aparılan danışıqlarda separatçıları Robert Köçəryan və Serj Sarkisyanın başçılığı ilə Ermənistan təmsil edib. Bütün bu məntiqsizlikdə dünyanın da öz məntiqi olub: ermənilərdən istifadə etməklə siyasi və iqtisadi maraqları reallaşdırmaq, türklərə qarşı tarixi ədavəti davam etdirmək. Odur ki, çirkli pulların yuyulması üzrə "mütəxəssis" olmuş Ruben Vardanyanın Nobel mükafatına namizəd göstərilməsində qeyri-adi heç nə axtarmamalıyıq. Nə vaxtsa terrorçu, uşaq qatili, Xocalı soyqırımının ideya müəllifləri və icraçılarından olan Köçəryan və ya Sarkisyanın da nominant ola biləcəklərinə təəccüb etməməliyik. Səbəb məlumdur: erməni məntiqsizliyinin məntiqi.

# KABAB İYİNƏ GEDƏN PAŞİNYAN




Ermənistanın hakim "Mülki müqavilə" partiyasının bir sıra üzvləri Qərbin onların fədakarlığını qiymətləndirmədiyini dilə gətirirlər. Aylardır Rusiyanı tənqid etdiklərinə, 44 günlük müharibədən sonra bütün günahları strateji müttəfiqlərinin üzərinə yıxdıqlarına görə, dərin peşmançılıq hissi keçirirlər.

**FUAD ABASOĞLU**

Aprel ayında Ermənistanın baş naziri Nikol Paşinyanın Brüsselə səfəri erməni mediasında son yüz ilin tarixi uğuru kimi dəyərləndirilsə də, hakim partiyada ciddi narazılıqların olduğu üzə çıxıb. Palaz-palaz yazılar, nəticələr və uğurlar barədə ekspert rəyləri, hakim partiya nümayəndələrinin sərsəm açıqlamaları da görüşün o qədər də ürəkaçan olmadığından xəbər verir.

### "SOYUQ DUŞ" EFFEKTİ

Məlum olur ki, Nikol Qərbə kabab iyinə getsə də, qoltuğunun altında qarpız geri dönüb. Bu, Ermənistandakı qərbpərəstlər və hakim komanda üçün "soyuq duş" effekti yaradıb. Rusiyapərəst qanad isə bu nəticələri bayram kimi qeyd etmək qərarına gəlib.

Brüssel görüşündə Ermənistana növbəti dörd il üçün cəmi 335 milyon avro məbləğində pul dəstəyi vədi verilib. Məbləğ "Mülki müqavilə"də ciddi çaxnaşmaya səbəb olub. Məsələ ondadır ki, görüşdən əvvəl partiya nümayəndələri ən azı iki milyard avroya ümid edirdilər və demək olar ki, buna əmin idilər. Bu pulla erməni dövləti Qafqazın Sinqapuruna çevrilməli idi.

Müqayisə üçün bildirək ki, təkcə cari ilin ilk iki ayı ərzində Ermənistanla Rusiya arasındakı ticarət dövriyyəsi 2.1 milyard dollar olub.

Artıq "Mülki müqavilə"nin bir sıra üzvləri Qərbin onların fədakarlığını qiymətləndirmədiyini bildirir və aylardır Rusiyanı tənqid etdiklərinə, 44 günlük müharibədən sonra rəsmi İrəvanın bütün günahlarını strateji müttəfiqlərinin üzərinə yıxdıqlarına görə, dərin peşmançılıq hissi keçirirlər. Erməni KİV-lərində yayılan məlumata əsasən, hakimiyyət çevrələri bir-birinə təsəlli verir, ümid edirlər ki, Paşinyan gizli razılaşmalar əldə edib. Yaxın zamanlarda ciddi məbləğlərin ölkəyə transferi müşahidə ediləcək.

### DÖRD KƏNDİN YARATDIĞI ÇAT

Eyni zamanda qeyd etmək yerinə düşər ki, son günlər dörd kəndin Azərbaycana qaytarılması məsələsində də hakim partiyada çatlar yaranıb. Rəsmilər müsahibə və söhbətlərində baş nazirin tezislərini təkrarlamaq məcburiyyətində qalıblar. Amma onun qərarları komandada birmənalı qarşılanmır. Çünki hökumət başçısı bu gün dediyi fikri sabah təkzib edir. Ona görə də artıq partiyada xarici siyasətdə kəskin dəyişiklik məsələsi ilə bağlı qeyri-müəyyən vəziyyət yaranıb. Bu qeyri-müəyyənlik parlamentdəki fraksiya daxilində də vəziyyəti gərginləşdirib. Hakimiyyət deputatlarının hər biri özünü lider kimi təsdiqləməyə və öz ideyası ətrafında başqalarını birləşdirməyə çalışır. Bir sözlə, mövqelərini gücləndirmək üçün komanda daxilində öz komandasını yaradır.

## ERMƏNİSTANA VERİLƏN TAPŞIRIQLAR



Partiya nümayəndələrini narazı salan məqamlardan biri də rəsmi təbliğat və qərbpərəstlərin Brüsseldə dönüş olacağı, Ermənistanla təhlükəsizlik paktı imzalanacağı, Avropa İttifaqına üzvlüyə namizəd olmaq üçün danışıqların başlayacağı fonunu yaratması idi. Eyni zamanda, Avropa vizası ilə bağlı müəyyən müsbət irəliləyişlər də gözlənilirdi. Amma sonunda məlum oldu ki, yuxarıda sadalananlardan heç biri görüşdə müzakirə edilməyib. Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan, xarici işlər nazirinin müavini Vahan Kostanyan isə bu məsələdən əvvəlcədən xəbərdar olduqları üçün partiyadaşlarını xəbərdar edərək, Brüsseldə əsasən iqtisadi məsələlərin müzakirə ediləcəyini bildirmişdilər. Amma "Mülki müqavilə" üzvləri onlara inanmayaraq, Brüssel görüşünün əsl dönüş olacağına inanmaqda davam ediblər.

Ermənistanda baş verən hadisələrin analizi sübut edir ki, Paşinyan Brüsseldə ABŞ və Aİ qarşısında öhdəliklər də götürüb. Bu öhdəliklərdən biri də Rusiya ilə yaxın əlaqəsi olan bütün şəxslərin vəzifədən uzaqlaşdırılmasıdır. Bağlı qapılar arxasında baş nazirə bildirilib ki, vəsait və dəstək yalnız etibar etdikləri insanlara verilə bilər. Bu isə erməni siyasi elitasında rusiyayönlü qanadın başı üzərində qara buludların toplaşmasından xəbər verir. Avropa İttifaqının bir sıra məmurlarının erməni təhlükəsizlik orqanları ilə bağlı ciddi narahatlıqları var və onlardan qurtulmaq tələb edilib. Bu sırada Ermənistan silahlı qüvvələrinin baş qərargah rəisi Edvard Asryanın adı qeyd edilir.

Brüssel görüşünün Azərbaycan üçün nəticələrinə gəldikdə isə, Blinken və fon der Lyayenin görüşdən əvvəl Prezident İlham Əliyevə zəng etmələri elə bir çox mətləbdən xəbər verir. Bu telefon zəngləri bir daha sübut edir ki, regionun lideri Azərbaycandır və istənilən məsələdə Bakıya hesabat verilməli, onun mövqeyi diqqətə alınmalıdır. Avropa ilə enerji sahəsində əməkdaşlığın bundan sonra daha da inkişaf etdiriləcəyi ilə bağlı fikirlər də buna sübutdur. Bununla da Azərbaycan Ermənistana bir daha sübut etdi ki, kiminsə qoltuğunun altında yaşamaq ən çirkin siyasətdir. Belə siyasəti yürüdənlər Brüsselə kabab iyinə gedib tulapayı ilə geri qayıdaraq siyasi elitada çaxnaşmaya səbəb olmaqdan başqa yol tanımırlar.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 \ (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

ÜÇ ƏSRİN QƏZETİ Kaspi


# İSRAİL İRANI İKİ İSTİQAMƏTDƏ CƏZALANDIRACAQ





**İran və İsrail hələlik hədə formasında da olsa, qarşılıqlı hücumları davam etdirəcəklərini gizlətmirlər. Əgər tərəflər arasında irimiqyaslı müharibə başlasa, bu, növbəti dünya müharibəsinə çevriləcək.**



AZƏR NURİYEV



HƏMAS-la İsrail arasında gərginlik səngiməmiş bəşəriyyət növbəti müharibənin baş vermə təhlükəsini yaşadı. Söhbət tarixə "qəribə" və "müəmmalı müharibə" kimi düşən İranla İsrail arasında yaşananlardan gedir. Əslində bu iki dövlət arasında qarşılıqlı hərbi həmlələrin baş verəcəyi gözlənilən idi. Aprelin 1-də İranın Dəməşqdəki konsulluğu bombalandıqdan sonra Tehran bunun anonsunu vermişdi. Aprelin 13-də İranın İsrailə bir neçə saatlıq hücumu Orta Şərqdə növbəti ciddi gərginlik potensialına malik hadisə kimi dəyərləndirilir. İranın İsrailə öz ərazisindən birbaşa və kütləvi miqyasda ilk hücumu ciddi müzakirə edilir. Hazırda nisbi sakitlik hökm sürsə də, İsrail növbəti hücumlarla hədələyir. Bəs proseslərin gedişi necə olacaq? Yeni dünya müharibəsi realdırmı? Suallar çox, cavablar isə qeyri-müəyyəndir. Məsələ ondadır ki, müharibə bütövlükdə nə İsrailə, nə də İrana sərf edir. İranın hücumunu çoxları daxili auditoriyaya hesablanmış addım hesab edirlər.

**QƏRB MEDİASINDAN FƏRQLİ MÜNASİBƏT**

Qərb mediası baş verənlərə fərqli münasibət sərgiləyir. "İsrail ABŞ, Qərb və regional hərbi tərəfdaşların köməyi olmadan İranın əməliyyatını dayandıra bilməzdi", - bu iddia ilə "The Wall Street Journal" (WSJ) çıxış edib. Nəşrin məlumatına görə, İsrail dövləti, əsasən, ABŞ və digər müttəfiqlərin verdiyi hava hücumundan müdafiə sistemləri, başqa silahlar sayəsində dronların, raketlərin əksəriyyətini zərərsizləşdirə bilib. WSJ-nin vurğulamasına görə, ABŞ, Britaniya və İordaniya döyüş təyyarələri dronların vurulmasında "böyük rol oynayıblar". Bildirilir ki, İsrailin sərt cavabı regionda dağıdıcı nəticələrə gətirib çıxaracaq, əks hal isə onu və müttəfiqlərini "daha zəif" edəcək. Bundan əlavə, Təl-Əviv Yaxın Şərqdəki tərəfdaşlarının, o cümlədən onu kəşfiyyat məlumatları ilə təmin etmiş, habelə hava məkanını açmış İordaniya, Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirliklərinin maraqlarını nəzərə almalıdır. WSJ daha əvvəl bildirmişdi ki, İsrail tezliklə İranın onun hərbi obyektlərinə hücumuna cavab olaraq hərəkətə keçə bilər. Vaşinqton israr edir ki, İsrail dövləti gərginliyin daha da artmasına səbəb ola biləcək heç bir şey etməməlidir.

## BEYNƏLXALQ İCTİMAİYYƏTİN REAKSİYASI

Diqqət çəkən bir faktı da qeyd edək. Dünyanın əksər ölkələri baş verənlərdə tərəf tutmadı. İstisnalar Avropa və ABŞ idi. Onlar İsraili dəstəkləyib İranın hərəkətlərini pislədilər. Almaniya kansleri Olaf Şolts İranın hücumunu "məsuliyyətsiz addım" adlandırıb, Fransa Xarici İşlər Nazirliyi isə öz vətəndaşlarını İranı tərk etməyə çağırıb. Eyni zamanda, Qərb eskalasiyanın daha da artmasından qorxur.

Region ölkələrinə gəlincə, İsrailin Yəmən, Fələstin, Livan və İrandakı düşmənləri "qələbə"ni qeyd ediblər. İordaniya isə əksinə, İsraili dəstəkləyib. Əmman hesab edir ki, eskalasiya "İsrailin Qəzza zolağına təcavüzünün" sonlandırılması ilə dayandırılacaq. Səudiyyə Ərəbistanı narahatlığını bildirib və tərəfləri təmkinli olmağa çağırıb.



Olaf Şolts

Ankaraya gəldikdə, onun yaşananlara xüsusi baxışı var. Türkiyənin açıqlamasında İran və İsrailin qarşılıqlı hücumlarının regional müharibəyə çevrilmə ehtimalının nə qədər yüksək olduğu göstərilib. Maraqlıdır ki, İran İsrailə zərbə endirmək niyyəti barədə Türkiyəni əvvəlcədən məlumatlandırıb. Əməliyyatın sonunda Tehran Ankaranı yeni hücumlara başlamayacağına əmin edib. Suriyada hərbi hava qüvvələri ilə mövcud olan Rusiya da tərəf tutmayıb. Bununla belə, Xarici İşlər Nazirliyi İsrail səfiri Simone Halperini Rusiyanın "İranın ölkəyə kütləvi raket hücumunu pisləyəcəyi" gözləntilərinə görə tənqid edib. Rusiya XİN sözçüsü Mariya Zaxarova xatırladıb ki, İsrail "Kiyev rejiminin Rusiya bölgələrinə hücumunu" bir dəfə də olsun qınamayıb.

## "KİM HAQLIDIR?"

Yeri gəlmişkən, iki ölkə arasında gərginlikdə tərəflərdən kimin daha çox məsuliyyət daşıması da müzakirə mövzusudur. Məsələ ondadır ki, İsrailin Dəməşqdəki İran konsulluğu ərazisinə hücumundan sonra Tehranın hansısa formada cavab verəcəyi bəlli idi. Çünki bu hücum beynəlxalq hüquq normalarına, o cümlədən, Vyana Konvensiyasına zidd addım kimi dəyərləndirilir. Diplomatik nümayəndəliyin ərazisi dövlətin suveren ərazisi sayılır və toxunulmazlıq statusuna malikdir. İsrail isə öz addımını onunla əsaslandırır ki, İran konsulluğunun ərazisindən qeyri-diplomatik məqsədlər üçün istifadə edilib.

**TƏRƏFLƏRİN SİYASİ HÜCUMLARI DAVAM EDİR**

Son məlumatlara görə, İsrail hökuməti İranın hücumuna qarşı atacağı addımlarla bağlı yekun qərar qəbul etməyib. Ölkənin xarici işlər naziri İsrael Kats bildirib ki, nə qədər gec deyil, İran dayandırılmalıdır. O, İranın hücumuna hərbi cavabla yanaşı, diplomatik cavab zərbəsi də hazırlandığını bildirib. Nazir 32 ölkəyə məktub göndərdiyini, onlarla xarici işlər naziri və dünya liderləri ilə danışdığını, raket hücumuna görə İrana qarşı sanksiyaların tətbiq edilməsinin vacibliyini vurğulayıb. O, danışıqlarda İranı zəiflətmək üçün İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) terror təşkilatı elan edilməsini istəyib. Bu çıxışlardan da göründüyü kimi, tərəflər arasında hərbi gərginlik zəifləsə də, siyasi və diplomatik müstəvidə qarşıdurma yeni mərhələyə adlayıb. Tərəflər hələlik hədə formasında da olsa, qarşılıqlı hücumları davam etdirəcəklərini gizlətmirlər.

Bu açıqlamalar isə bir növ "səhnə"də divardan asılan tüfəngi xatırladır. Dünən İsrailin İrana endirdiyi cavab zərbələrinin miqyası və qeydə alınan göstəricilər də dediklərimizi bir daha isbatlayır.

Proseslərin gedişi onu deməyə əsas verir ki, əbədi düşmənlər yaxın perspektivdə irimiqyaslı müharibəyə başlamağa cürət etməyəcəklər. Əgər başlasalar, bu, növbəti dünya müharibəsi deməkdir.

# ÖMRÜ YARIDA, PULU HAVADA QALANLAR




**Statistik məlumatlara əsasən, ölkəmizdə il ərzində vəfat edən kişilərin təxminən yarısı pensiya yaşına çatmayanlardır. Bu statistika yenidən pensiya yaşına çatmadan vəfat edənlərin pensiya kapitalının taleyi məsələsini gündəmə gətirir.**

SEVİNC ABBASOVA

Azərbaycanda il ərzində 60 min 810 nəfər vəfat edib. Statistik məlumatlara əsasən, vəfat edənlərin 33 min 157 nəfəri kişidir. Vəfat edən kişilərin 47,8 faizi və ya 15 min 872 nəfəri 65 yaşına çatmadan dünyasını dəyişiblər. Başqa sözlə, ümumilikdə kişilərin təxminən 48 faizi pensiya yaşına çatmadan vəfat ediblər.

Xatırladaq ki, 2020-ci ilin iyul ayından etibarən Azərbaycanda kişilər 65 yaşından sonra pensiyaya çıxırlar. Statistikadan da göründüyü kimi, ancaq kişilərin böyük əksəriyyəti pensiya yaşına çatmadan dünyalarını dəyişirlər.

Nəzərə alaq ki, bəzi hallar istisna olmaqla, Azərbaycan qanunvericiliyinə əsasən, pensiya yaşına çatmadan ölənlərin hesabına yığılan pensiya kapitalı varislərə qaytarılmır. Eyni zamanda, ölkəmizdə həm işləyənlərin, həm də yüksək məbləğdə pensiya kapitalı yığanların böyük əksəriyyəti kişilərdir. Ona görə də problem çox ciddidir. Bəs, görəsən, yaranmış vəziyyətdən çıxış yolu nədən ibarətdir?

### PENSİYA SİSTEMİNİN BİR ÇOX BOŞLUQLARI VAR

Sosioloq Elçin Bayramlının fikrincə, ölkədə kişilərin təxminən yarısının pensiya yaşına çatmadan vəfat etməsi ciddi siqnaldır: "Əhalinin, xüsusən də kişilərin yarıya yaxını pensiya ala bilmir. Faktiki olaraq dövlət uzun illərdir insanlardan sosial sığorta haqqı tutur, amma insanların yarısı o pulu ala bilmir. Halbuki o vəsait həmin şəxsin qanuni puludur".

### "ÖLÜM HALLARININ STATİSTİKASI TƏHLİL EDİLMƏLİDİR"

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında İctimai Şuranın sədri, professor Elşad Məmmədov hesab edir ki, ilk növbədə pensiya yaşına çatmayan insanların ölüm hallarının statistikası təhlil edilməlidir: "Təəssüflər olsun ki, bu kimi məsələlərdə daha çox pensiya yaşının azaldılması ilə bağlı təkliflər irəli sürülür. Amma iş yerlərində əmək şəraitinin yaxşılaşdırılması, səhiyyə infrastrukturunun inkişafı məsələlərinə toxunulmur. Əslində aparıcı ölkələrin statistikasına nəzər salsaq görərik ki, həmin ölkələrdə 70-75 yaşında insanların əksəriyyəti əmək qabiliyyətli olurlar. Onlar üçün işləmək daha sərfəlidir, hüquqları olsa belə, pensiyaya çıxmaq istəmirlər. Bizdə isə iqtisadiyyatın strukturu hələ o səviyyəyə çatmayıb ki, pensiyaçıların sosial hüququ daha da genişləndirilsin".

Professor vurğulayıb ki, Azərbaycanda tətbiq olunan sistem yığım pensiyasıdır. Yəni vətəndaş nə qədər vəsait toplayırsa, həmin məbləğə uyğun pensiya alır: "Təbii ki, əməkhaqqı yüksək olarsa, bu kimi məsələlər avtomatik həllini tapacaq. Əgər iqtisadiyyatın strukturu dəyişərsə, hətta pensiya yaşına çatan vətəndaşlarımızın çoxu işləməyə üstünlük verəcək. Səhiyyə sahəsi də inkişaf etdirilməlidir. Ölüm hallarının əksəriyyəti məhz insanların çoxunun keyfiyyətli səhiyyə xidmətindən yararlanmağa imkanının çatmaması ilə bağlıdır".




## VARİSLƏRƏ QAYTARILA BİLƏR, AMMA...

İqtisadçı ekspert Pərviz Heydərov bildirib ki, pensiya yaşına çatmadan ölənlərin hesabına yığılan kapitalın varislərə qaytarılması indiki halda mümkün deyil: "Ümumiyyətlə, pensiya yaşı müəyyən edilərkən Dövlət Sosial Müdafiə Fondunun imkanları nəzərə alınır. Eyni zamanda, vətəndaşların əmək fəaliyyəti dövründə ödədikləri sosial sığorta haqları, onların pensiya kapitalı, iş stajları və sair də nəzərdən keçirilir. Vətəndaş çalışdığı dövrdə sosial sığorta haqqı ödəməklə özünə pensiya kapitalı yığır. Bu da elə təşkil olunmalıdır ki, vətəndaşın vaxtı ilə ödədiyi sığorta haqları onun pensiya məbləğinə kifayət etsin, hansısa çatışmazlıq olanda DSMF-nin büdcəsindən əlavə dotasiya ayırmaq mümkün olsun. Təbii ki, pensiya yaşına çatmadan vəfat edənlərin kapitalının varislərə qaytarılmasını hər kəs arzulayar. Lakin reallıq başqadır. Amma bu, gələcəkdə mümkün ola bilər".

## VƏFAT EDƏN ŞƏXSİN PENSİYA KAPİTALI NECƏ İSTİFADƏ OLUNUR?

Dövlət Sosial Müdafiə Fondunun (DSMF) İctimaiyyətlə Əlaqələr Departamentinin müdiri Rəşad Mehdili bununla bağlı sorğumuza cavab olaraq bildirib ki, vətəndaşın fərdi hesabının sığorta hissəsində toplanmış pensiya kapitalından qanunvericiliyə uyğun olaraq yalnız pensiya məqsədləri üçün istifadə oluna bilər: "Yəni vətəndaşın xeyrinə ödənilmiş məcburi dövlət sosial sığorta haqlarında istifadə sosial sığorta hadisəsi baş verdikdə, məsələn, pensiya yaşına çatdıqda əlilliyi müəyyən edildikdə, ailə başçısını itirdikdə və digər hallarda həyata keçirilir. Qanunvericiliyə görə, vətəndaş pensiya yaşına çatmamışdırsa və ya bu yaşa çatanadək əlilliyi müəyyən edilməmişdirsə fərdi şəxsi hesabında toplanmış pensiya kapitalından istifadə edə bilmir. Həmin şəxs vəfat etdiyi, yaxud həlak olduğu halda toplanmış pensiya kapitalı onun öhdəsində olan ailə üzvlərinə - 18 yaşınadək (əyani təhsil alan 23 yaşınadək) övladlarına, 18 yaşına çatanadək əlilliyi müəyyən olunmuş 18 yaşından yuxarı əlilliyi olan övladlarına, pensiya yaşına çatmış, yaxud orqanizmin funksiyalarının 61-80 faiz və ya 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş ata və anasına, ərinə və ya arvadına, 8 yaşına çatmamış uşaqlarına, qardaşlarına, bacılarına, nəvələrinə baxan və işləməyən şəxslərə (valideynlərindən biri, əri (arvadı), babası, nənəsi, qardaşı, bacısı) ailə başçısını itirməyə görə əmək pensiyası təyin edilərək ödənilir. Göründüyü kimi, şəxsin topladığı pensiya kapitalı o, dünyasını dəyişdiyi halda ailə üzvlərinin sosial təminatı üçün istifadə olunur. Pensiyalarda hər ilin əvvəlində indeksasiya nəticəsində edilən artımlar qeyd edilən bu pensiyalara da şamil olunur".

ÖRNƏK Kaspi 20 APREL ŞƏNBƏ 2024 9

BİR KƏND UŞAĞININ KARYERA YOLUNDAKI ÇƏTİNLİKLƏRİ, ZƏHMƏTİ, UĞURLARI, MÜBARİZƏSİ HAQQINDA MARAQLI MÜSAHİBƏ

# DİPLOMU 175 ÖLKƏDƏ KEÇƏRLİ OLAN AZƏRBAYCANLI



SÖHBƏTLƏŞDİ

AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

**Emin Sədirov: "Bu təqaüdü qazanmaq üçün iki il dayanmadan oxudum. Açığı, çox çətin idi. Məqsədim ABŞ təhsilini Azərbaycan Dövlət Dəniz Akademiyasında tətbiq etmək idi".**

Bu hekayə kənd uşağının karyera yolundakı çətinlikləri, zəhməti, uğurları, dirənişi, mübarizəsindən bəhs edir. O, sosial şəbəkələrdə, mətbuatda ABŞ-nin Texas Universitetində "Fellowship" təqaüdünü qazanan ilk azərbaycanlı dənizçi kimi tanınıb. 2021-ci ildə bu universitetə qəbul olan 32 nəfərdən biri idi. O zaman doğulub, böyüdüyü kənd, rayon onunla fəxr edirdi. İki il gecə-gündüz çalışıb, böyük zəhmətlə əldə etdiyi nailiyyətini başa vurmadan, yarımçıq qoymaq məcburiyyətində qalıb. Amma bu, onun üçün son deyildi. Mübarizəyə sıfırdan başlayır və dənizçilik təhsilini İsveçdə tam təqaüdlə qəbul olduğu Dünya Dənizçilik Universitetində davam etdirir.

"Kaspi" qəzetinin "Örnək" rubrikasının müsahibi dənizçi Emin Sədirovdur.

### AİLƏSİNİN İLK DƏNİZÇİSİ

Biləsuvar rayon Xırmandalı kəndində sadə kəndli ailəsində böyüyüb. Atası bərbər, anası evdar qadın olub. Orta təhsilini Biləsuvarda kənd məktəbində alıb. 2009-cu ildə Azərbaycan Dövlət Dəniz Akademiyasında dəniz texnikası və texnologiyası ixtisasına qəbul olub. Daha sonra eyni adlı ixtisasda təhsilini magistratura pilləsində davam etdirib. Akademiyada assistent müəllim, baş laborant kimi işləyib. Deyir ki, ailə, qohum-əqrəba arasında ilk dənizçidir: "Ailəmdə dənizçilik təhsilini alan olmayıb. Əslində, mən də dənizçi olacağımı gözləmirdim. Hətta qəbul olduğumu bildikdə, oxumaq istəmirdim. Çünki bu sahənin dərinliyinə bələd deyildim. Təhsil müddətində ixtisasımı kəşf etməyə başladım və gördüm ki, çox maraqlıdır. Məsələn, peşəni icra edərkən dünyanın 175 ölkəsinə səyahət edə bilərsən. Çünki Azərbaycan Dövlət Dəniz Akademiyası beynəlxalq dənizçilik təşkilatına üzv olan ölkələrlə əməkdaşlıq edir və diplomu dünyanın 175 ölkəsində tanınır. Nəinki dənizçi olmaq, bu sahəni xaricdə də öyrənib, dənizçilər yetişdirmək qərarına gəldim".



### "AKADEMİYADAN MÜƏLLİMLİK TƏKLİFİ ALDIM"

Universitetdə təhsil ala-ala rektorun diqqətini cəlb edir və ona müəllimlik təklif olunur: "Qiymətləri yüksək, nizam-intizamlı tələbə idim. Yəqin ki, bu, rəhbərliyin diqqətini çəkmişdi. Universitetdə dəniz texnikası və texnologiyası üzrə vakansiya var idi. Amma bu iş təklifi mənim üçün gözlənilməz idi. Təklifi heç tərəddüd etmədən qəbul etdim. Həmin ildən həm akademiyada, həm Dənizçilik kollecində dərslərə cəlb olundum. İşçi heyəti də müəllimlik fəaliyyətimdə mənə dəstək oldu".

### YÜKSƏK RƏQABƏTLİ UNİVERSİTETƏ TƏQAÜDLƏ QƏBUL

Emin ABŞ-də təhsil almaq üçün müəllimlik fəaliyyətini yarımçıq qoyur. Texas A&M Universitetində Okean mühəndisliyi üzrə PhD təhsili almaq üçün sözügedən ölkəyə yollanır: "Bu təqaüdü qazanmaq üçün iki il dayanmadan oxudum. Açığı, çox çətin idi. Məqsədim ABŞ təhsilini Azərbaycan Dövlət Dəniz Akademiyasında tətbiq etmək idi. Hədəfimə çatmaq üçün əvvəlcə IELTS sertifikatı aldım. Elə bilirdim ki, ən çətin mərhələ budur, getdikcə asanlaşacaq. Sən demə, imtahanlar hələ təzə başlayırmış. Qəbul dövrüm pandemiyaya təsadüf etdiyi üçün imtahanlarım onlayn idi. Ümumilikdə 42 fənn üzrə yazılı və şifahi imtahan verdim. Sonra mənə "Fellowship" təqaüdünü qazanmağımla bağlı elektron məktub gəldi. Əslində, bu universitet ABŞ-da ən xəsis universitet kimi tanınırdı. Onlardan təqaüd almaq çox çətindir. Hətta son üç imtahanı erməniəsilli professorlar götürdüyü üçün qəbulla bağlı ümidlərimi tam üzmüşdüm, çünki məni qəsdən kəsəcəklərini düşünürdüm. Qəribəsi odur ki, ən yüksək qiymətləri də elə erməni professorlar vermişdi".

> *"ABŞ-də təhsilimi dondurmuşdum, qayıdıb davam edə bilərdim. Amma azərbaycanlı professorlar mənə İsveçdə Dünya Dənizçilik Universitetində dəniz hüququ üzrə təhsil almağımı məsləhət gördülər."*

### "NASA-YA ÜZV OLDUQ"

Emin hətta bu təqaüdlə NASA-ya da üzv olub: "ABŞ-də universitetə başladığım dövrdə universitetə gələn NASA əməkdaşları bizi oraya üzv olmağa dəvət etdilər. Bizdə gəmiçilik deyəndə ancaq dənizdə üzən gəmilər başa düşülür. Amma ABŞ-də gəmiçiliyin iki istiqaməti var: kosmik gəmi və dənizləri fəth edən gəmi. Məni kosmik gəmiyə yönəltdilər".

### "İKİ İLLİK PROSES 40 GÜNDƏ BİTDİ"

Emin hədəfinə çatmışdı. Həm "Fellowship" təqaüdünü qazanan ilk azərbaycanlı dənizçi idi, həm də NASA-ya üzv olub, kosmik gəmi sahəsində təcrübə keçəcəkdi. Lakin planında olmayan qərarı vermək məcburiyyətində qalır. İki il davam edəcək olan ABŞ macərası 40 günə bitir: "Təəssüflər olsun ki, səhhətimdə olan problemlərə görə, təhsilimi yarımçıq qoymaq məcburiyyətində qaldım. İki illik proses 40 gün ərzində bitdi. O vaxt yadımdadır, 12 minə yaxın tələbə bu təqaüd üçün müraciət etmişdi. Seçilən 32 nəfərdən biri idim. Belə bir məsəl var, sən saydığını say, gör fələk nə sayır".

### "MƏCBUR QALIB, VƏTƏNİMƏ QAYITDIM"

Valideynlərinin məsləhəti ilə Bakıya gəlir, müalicəsini Azərbaycanda davam etdirir: "Xəstəliyimi biləndə, üç gün ailəmdən gizlətdim. Gördüm ki, gizlətməklə öz səhhətimə ziyan verirəm və mütləq müalicə almalıyam. Məcbur qalıb, ailəmə dedim. Mənə dedilər ki, təhsil səhhətindən önəmli deyil. Gəl Azərbaycanda müalicə al, sonra təhsilini davam etdirərsən. Xaricdə, xüsusilə xəstələndikdə yaşamaq çox çətindir. Ailə üzvlərinin çarəsiz anında sənə göstərdiyi qayğının əvəzi yoxdur. Hətta öz ölkəndə ailəndən uzaq yaşasan belə, bizim xalqımız istiqanlıdır, hər çətin anında köməyinə çatan olur. Xaricdə bu şansın yoxdur, hər yer sənə yaddır. Məcbur qalıb, vətənimə qayıtdım".

### "İSTƏNİLƏN ÖLKƏDƏ DƏNİZÇİ KİMİ FƏALİYYƏT GÖSTƏRƏ BİLƏRƏM"

Həmsöhbətimiz deyir ki, ölkəyə qayıtdığı üçün "bacara bilmədi", "universitetdən qovuldu" kimi basqılarla üzləşib. Amma neqativ fikirlər onu gücləndirib və yenidən hədəfinə çatmaq üçün çalışıb: "ABŞ-də təhsilimi dondurmuşdum, qayıdıb davam edə bilərdim. Amma azərbaycanlı professorlar mənə İsveçdə Dünya Dənizçilik Universitetində dəniz hüququ üzrə təhsil almağımı məsləhət gördülər. Çünki bu ixtisas üzrə xaricdə təhsil alıb Azərbaycanda tədris edəcək kifayət qədər kadr və ya müəllim heyəti yoxdur. Bu proqramın da üstünlükləri çox idi. Tam təqaüd verir, bütün xərcləri qarşılayırdılar. Hətta universitet hüquq və siyasət üzrə magistratura təhsili alan tələbələri Birləşmiş Millətlər Təşkilatı Beynəlxalq Dəniz Təşkilatına, Niderland, Almaniya, Filippin, Sinqapur və Birləşmiş Ərəb Əmirlikləri kimi ölkələrdə yerləşən beynəlxalq hüquq məhkəmələrində təcrübələrə göndərirdi. Bu, mənim üçün çox yaxşı şans idi. Sənədlərimi göndərdim, ilkin prosesdə uğurlu namizəd kimi qiymətləndirildim. Beynəlxalq Dəniz Təşkilatının Koreya təqaüdü ilə İsveçin Malmö şəhərində Dünya Dənizçilik Universitetində dəniz hüququ və siyasəti üzrə magistratura pilləsində tam təqaüdlə təhsil alıram. Hazırda universitet dənizçilik təhsili verən ən reytinqli universitetlərdəndir. Buranın diplomu bütün dünya ölkələri tərəfindən tanınır. Yəni universiteti bitirib dünyanın istənilən ölkəsində bu diplomla dənizçi kimi fəaliyyət göstərə bilərəm".

### "DƏNİZ HÜQUQUNU BU TƏLƏBƏLƏR TƏDRİS EDƏ BİLMƏZ"

Təhsil aldığı ixtisasın əhəmiyyətinə gəldikdə isə, müsahibimiz vurğulayır ki, dəniz hüququ və siyasətinin məqsədi gəmiçilik şirkətlərinin statusunu beynəlxalq arenada tanıtmaq, qorumaq və müdafiə etməkdir: "Dəniz hüququnu digər hüquq ixtisaslarını bitirən namizədlər, tələbələr tədris edə bilməzlər. Mən də təhsilimi burada bitirib, öz ölkəmdə, tələbələrə bu sahədə tədris etmək fikrindəyəm. Azərbaycan Dövlət Dəniz Akademiyasını bitirən hər bir tələbə bilməlidir ki, qazandığı ixtisas və işlədiyi sahə beynəlxalq müstəvidə hansı hüquqlara malikdir, qlobal olaraq töhfələri nədir və hüquqları necə qorunur".





## "ƏTRAFINIZDA SİZƏ İNANAN İNSANLAR OLMALIDIR"

Müsahibimiz deyir ki, ilk dənizçilik təqaüdünü qazandıqda sosial şəbəkələrdəki paylaşımlarda sevinib təbrik edənlərlə yanaşı, "yəqin pulu çoxdur" deyənlərə də rast gəlinirdi: "Mən sadə ailədə böyüyən kənd uşağıyam. İnsanlar düşünür ki, kimsə uğur əldə edirsə, bu, kiminsə sayəsindədir. Mən iki il gecə-gündüz oxuyanda yaşıdlarım öz əyləncələrindən qalmırdılar. ABŞ-yə gedəndə də məhz həmin adamlar dedilər ki, bunun adamı, yaxud pulu var. Bu söhbətlər ailədən gəlir. Ailə və onun ərafında olan insanlar uşağın psixoloji olaraq beyninə yeridirlər ki, uğur qazanan hər bir kəsin mütləq bir dəstək göstərəcək adamı var. Bizdə belə deyildi. İmtahandan kəsilsəm də, aşağı qiymət alsam da ailəm heç vaxt məni motivasiyadan salmırdı. Uğursuz olduqda belə, ailə üzvlərim deyirdilər ki, özünü ruhdan salma, bu dəfə uduzubsan, növbəti cəhdində mütləq qalib olarsan. Ətrafınızda sizi yerə çəkən deyil, sizə inanan insanlar olmalıdır. İstəyirsənsə, mütləq bacaracaqsan. İradənin qarşısında heç nə dayana bilməz".

### "BİR YERDƏ AXTARDIĞIMI TAPMIRAMSA, DİGƏR YERDƏ AXTARIRAM"

Uğurunun sirrinə gəldikdə isə, həmsöhbətimiz vurğulayır ki, onun sirri istədiyini əldə etməyənə qədər əl çəkməməkdir: "Bir yerdən "yox" cavabı aldımsa, bu o demək deyil ki, mənim üçün hər şey bitdi. Bir yerdə axtardığımı tapmıramsa, digər yerdə axtarıram. Ən əsası, dəfələrlə cəhd edirəm. Məsələn, büdcəm xaricdə təhsil almağa çatmırdı. Bir neçə universitetə sənədlərimi göndərdim. Bəziləri 50, 75 faiz təqaüd təklif edirdilər. Amma mənə təhsil almaq üçün tam təqaüd lazım idi. Çalışdım, əldə etdim".

NECƏ DEYƏK Kİ, "MAŞINI EVDƏ QOY"

# TIXACLI BAKI BİZƏ KEÇƏN ƏSRDƏN ƏMANƏTDİR



**Urbanist Anar Əliyev:** "Əksər küçələrdə və şəhər mərkəzindən kənarda avtobus zolaqlarına nəzarət olunmur. Belə şəraitdə insanlar ictimai nəqliyyata inanmır və özlərinə maşın alırlar. İctimai nəqliyyat normal inkişaf etməlidir ki, şəxsi avtomobilin istifadəsi azalsın".




"Urbanistikanı doğru tətbiq etməliyik ki, şəhərlərimiz rahat və təhlükəsiz olsun". Urbanist Anar Əliyev belə düşünür. O, müasir şəhər infrastrukturu, şəhərsalma, yol hərəkətinin təşkili və ictimai nəqliyyat haqqında Azərbaycanda ilk maarifləndirici layihə olan "İnsan yönümlü şəhərlər"in yaradıcısıdır. Müsahibimizin sözlərinə görə, adətən şəhərlər ya avtomobil yönümlü, ya da piyada yönümlü olurlar: "Avtomobil yönümlü şəhərlərdə ilk növbədə yollarda avtomobillərin rahat hərəkətinə şərait yaratmağa çalışılır. İnsanlar daha çox maşın alır, vəziyyəti daha da pisləşdirir. Yolların genişləndirilməsi də tıxac problemini həll etmir. Avtomobil yönümlü şəhər keçən əsrdə qalan təcrübədir.

İnsan yönümlü şəhərlər isə elə qurulurlar ki, ilk növbədə mobillik nəzərə alınır. Yəni insan istədiyi üsulla rahat və təhlükəsiz şəkildə gedəcəyi yerə çata bilir".

### XARİCİ TƏCRÜBƏDƏN İSTİFADƏ ETSƏK...

A.Əliyevin fikrincə, xarici təcrübədən istifadə etsək, Bakıda inkişafa nail olarıq: "London, Praqa, Budapeşt, Almaniyanın şəhərləri vaxtilə bizim kimi problemlər yaşayıb və 50 il sonra indiki müasir şəhərlərə çevrilə biliblər. İndi bu şəhərlərdə tıxaclar olsa belə, insanların hər zaman alternativi - yaxşı ictimai nəqliyyatı, velosiped yolları, piyada səkiləri var. Macarıstan, Polşa Rumıniya kimi ölkələr vaxtilə sovetlərin şəhərsalma prinsiplərini tətbiq etmişdilər. İndi onlar da geniş yollarda zolaqların sayını azaldır, daha çox velosiped yolları salırlar".

### SOVETLƏRDƏN QALAN "MİRAS"

Urbanist sovet şəhərsalmasındakı əsas səhvlərdən də danışdı: "Sovet dövründə belə bir tendensiya var idi ki, hər kəs nə vaxtsa maşın ala biləcək və avtomobillə rahat, təhlükəsiz hərəkət etməyə başlayacaq. Ona görə böyük sovet şəhərlərində geniş küçələr, prospektlər salmağa başladılar. SSRİ dağılandan sonra kütləvi avtomobilləşmə baş verəndə gördülər ki, həmin geniş prospektlər daha çox avtomobil cəlb edir və daha çox tıxac yaradır".

> *Avtobusların qrafik üzrə hərəkət etməməsinin səbəbi zolaqların olmaması, olan yerlərdə isə yaxşı qorunmamasıdır.*

### AVTOBUS İŞ YERİNƏ MAŞINDAN TEZ ÇATMALIDIR

Həmsöhbətimiz dedi ki, insanlara komfortu və vaxtı eyni anda verə bilsək, tıxacları azalda bilərik: "Bakıda təxmini olaraq hər gün iki milyon insan avtobuslardan, 600-800 min nəfər isə metrodan istifadə edir. Hər gün küçələrə minlərlə avtomobil çıxır. Velosipedlər və skuterlər ümumi nəqliyyatın heç beş faizini də təşkil etmirlər. İnsanlar harasa çatmaq üçün üç kriteriya - qiymət, komfort və vaxt üzrə seçim edirlər. Məsələn, bir nəfər iş yerinə maşınla yarım saata komfortlu durumda çatır. Əgər avtobus da məntəqəyə maşınla eyni vaxtda çatacaqsa, qiymət aşağı olsa da, insan komfortlu maşını seçəcək. Ona görə elə etmək lazımdır ki, avtobus iş yerinə maşından tez çatsın".

### "SABİT QRAFİKLƏ HƏRƏKƏT EDƏ BİLMİRLƏR"

Mütəxəssis bildirdi ki, hazırda Bakıda avtobuslar sabit qrafiklə hərəkət edə bilmirlər. Ona görə də insanlar avtobusu dayanıqlı ictimai nəqliyyat saymırlar: "Avtobusların normal intervalı 5-7 dəqiqədir, amma reallıqda 15-17 dəqiqə, bəzən yarım saata gəlirlər. Avtobusların qrafik üzrə hərəkət etməməsinin səbəbi zolaqların olmaması, olan yerlərdə isə yaxşı qorunmamasıdır. Əksər küçələrdə və şəhər mərkəzindən kənarda avtobus zolaqlarına nəzarət olunmur. Belə şəraitdə insanlar ictimai nəqliyyata inanmır və özlərinə maşın alırlar. İctimai nəqliyyat normal inkişaf etməlidir ki, şəxsi avtomobilin istifadəsi azalsın".




## "METRO HEÇ 10 İLƏ DƏ İNKİŞAF ETMƏYƏCƏK"

A.Əliyev Bakıda metronun inkişafı üçün xeyli maliyyə tələb olunduğunu bildirdi: "Bakı kimi böyük şəhərə cəmi 27 metro stansiyası çox azdır. Bakıda metroya kifayət qədər maliyyə ayrılmayıb. Son 30 ildə cəmi 7 stansiya açılıb. Bakının Baş planında metro xətlərinin ayrılması nəzərdə tutulub. Eyni zamanda, dairəvi metro xəttinin tikintisi də mütləq nəzərə alınmalıdır ki, intervallar azalsın. Bunun üçün təzə depolar açılmalıdır. Bu sahəyə azı bir neçə milyard manat pul ayrılmalıdır. Amma real olaraq hər il metro tikintisinə təxminən 50-80 milyon manat pul ayrılır. Bu templə metro heç növbəti 10 ilə də ciddi inkişaf etməyəcək".

### "4-5 KÜÇƏDƏ ZOLAQ SALINMASI KİFAYƏT DEYİL"

Bu gün Bakıda mobillik yolları salınır. Amma istifadəçiləri çox azdır. Mütəxəssisin sözlərinə görə, 4-5 küçədə velosiped zolağının salınması kifayət deyil. Həmin zolaqlar bütün şəhəri əhatə etməlidir: "İnsanlar görsələr ki, getdikləri ünvana avtomobillə yox, velosipedlə daha rahat və təhlükəsiz, həm də tez çatırlar, onda bunu qiymətləndirəcəklər. Maşınlarını evdə qoyub velosiped zolağından istifadə edəcəklər. Bakıda qarlı, yağışlı günlərin sayı çox deyil deyə, velosiped yolları uğurlu ola bilər".

Urbanist qeyd etdi ki, insan yönümlü şəhərlərin havası təmiz olmalıdır: "Bakıda, Abşeronda havadakı zərərli qazların ən böyük payı avtomobillərin istifadəsi zamanı yaranan dəm qazlarının payına düşür. Avtomobil istifadəsi buna görə də azaldılmalıdır".

## CEHİZ KİMİ ARTIQ XARİCİ YOX, YERLİ MEBEL ALIRIQ

2023-cü il yanvar fevral
41.9 milyon manat
İstehsal edilən mebel



Yerli istehsal idxalı üstələyib
28%



İdxal edilən mebel və onun hissələri
19 mln 266 min dollar
2024-cü il yanvar fevral

# İSTEHSALIN İDXALI ÜSTƏLƏDİYİ SAHƏ











Mebel istehsalı sahəsində yerli bazarın inkişafı idxal statistikasının azalmasına səbəb olub. Müştərilər artıq yerli mebellərə daha çox üstünlük verməyə başlayıblar. Ekspertlər bildirirlər ki, növbəti mərhələdə diqqət ixracın genişləndirilməsinə yönəlməlidir.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Dövlət Statistika Komitəsinin hesabatına əsasən, 2024-cü il yanvar-fevral ayları ərzində Azərbaycana 19 milyon 266 min dollar dəyərində mebel və onun hissələri idxal edilib. 2023-cü ilin yanvar-fevral aylarında ölkədə 41.9 milyon manat dəyərində mebel istehsal edilib. Bu da o deməkdir ki, bu sahədə yerli istehsal idxalı 28 faiz həcmində üstələyib. Adətən insanlar daha çox xarici mebel almağa üstünlük verirdilər. Lakin yerli istehsal artıbsa, deməli, bu məhsullara tələbat artıb. Bəs mebel seçimindəki bu dəyişikliyin səbəbi nədir?

### "İDXALDAN ASILILIĞI AZALTMAĞA ÇALIŞIRIQ"

Mebel istehsalçısı İslam Əhədov bildirdi ki, bu sahədə müştərilərin iki profil üzrə tələbatları mövcuddur: "Birinci kateqoriya keyfiyyətli məhsul istehsal etməkdir. İkinci kateqoriya isə keyfiyyəti digər məhsullardan nisbətən zəif olan mallardır. Çalışırıq mebel sənayesi üzrə inkişaf edək. Bu baxımdan keyfiyyətli məhsul istehsalı, həmçinin idxal məhsullarından asılılığın daha da azaldılması üçün müəyyən işlərin görülməsinə ehtiyac var. İxracdan əlavə, məqsədimiz Azərbaycanda yerli məhsul istehsalını o dərəcəyə çatdırmaqdır ki, ölkəmizin bu sahədə idxaldan asılılığı maksimum dərəcədə azalsın. İxracla bağlı heç bir problemimiz yoxdur".

### QİYMƏTƏ TƏSİR EDƏN SƏBƏBLƏR

İ.Əhədovun sözlərinə görə, bu sahədə ən ehtiyac duyulan innovativ dəzgahlardır: "Hansı ki, bu avadanlıqlar vasitəsilə daha keyfiyyətli və müasir üslubda mebellərin hazırlanması mümkündür. Onların xaricdən gətirilməsi böyük xərc tələb edir. Bizdə həmin dəzgahların 70 faizi mövcuddur. Amma hər il müxtəlif tədbirlərdə iştirak edərkən görürük ki, bu cihazlar ildən ilə yenilənir, bazara daha yeniləri və keyfiyyətliləri daxil olur. Həmin dəzgahların əldə olunmasına ehtiyac var".

Müsahibimizin fikrincə, mebel istehsalını və ixracını inkişaf etdirmək üçün hər iki sahədə istehsalçılara güzəştlər olmalıdır: "Bu sahə üzrə inkişaf etmiş şirkətlərin yaradılmasına ehtiyac var. Hansı ki, onlar daha böyükdür və keyfiyyətə daha çox önəm verirlər. Həmçinin müştərilərin istəklərini daha tez yerinə yetirirlər. Digər tərəfdən, mebel istehsalçılarının iş şəraitinin yaxşılaşdırılması kimi məsələlərə də toxunulmalıdır. Həmçinin materialların qiymətlərinin ucuzlaşdırılmasına ehtiyac var. Nə qədər yerli istehsal mövcud olsa da, xaricdən bəzi avadanlıqlar, məmulatlar, xammal ləvazimatları, aksesuarlar gətirilir. Onların gömrük rüsumu ilə bağlı müəyyən işlər görülərsə, bu, istehsala çox ciddi təsir edər. İstehsalçıların daha çox şikayətləndiyi məsələlərdən biri budur. Qeyd edim ki, mebellərin qiyməti sırf bu xərclərə bağlı olaraq dəyişir".



Emin Qəribli

### İSTEHSAL ARTIMI İXRACI DA STİMULLAŞDIRIR

İqtisadçı Emin Qəribli yerli mebel istehsalının inkişafını müsbət qiymətləndirir: "Əvvəllər mebel istehsalı sırf daxili bazara yönəlmişdi. Amma artıq görürük ki, ayrı-ayrı şirkətlər müxtəlif ölkələrə də mebel ixrac edirlər. Bu onun nəticəsidir ki, həm vergi islahatları aparılır, həm də kiçik və orta sahibkarlığa yardımlar artırılır. Bunun sayəsində istehsalda artım müşahidə edirik. İstehsalla yanaşı, ixracın artması da gözlənilir. Məsələn, qonşu ölkələrə getdikdə orada yerli mebel istehsalçılarımızın nümayəndəliklərini görə bilərik".

### "AZAD İQTİSADİ ZONALARA YÖNƏLİN"

E.Qəribli düşünür ki, istehsalçılar onlar üçün yaradılmış imkanları dəyərləndirsələr, daha da uğurlu olarlar: "İstehsalın daha səmərəli olması üçün azad iqtisadi zonalar yaradılıb. Azad iqtisadi zonalar vergilərdən azaddır. Məsələn, Qarabağ bölgəsində istehsal onlar üçün daha sərfəli olar. Üstəlik, bu ərazilərdə tikinti işləri gedir. Həmin bazara yönələ bilərlər. Həmçinin mebel istehsalında yeni texnologiyalar tətbiq olunur və məhsullar daha müasir avadanlıqlarla istehsal edilir. Bu üstünlüklərdən istifadə etsələr, mebel istehsalındakı inkişaf daha da artar".

İqtisadçının fikrincə, istehsalla bağlı bütün problemlər aradan qalxdığına görə ixrac sahəsində müəyyən işlər görmək lazımdır: "Dövlət daxili bazar üçün güzəştlər yaradır. Amma ola bilər ki, gələcəkdə ixrac üçün də müəyyən addımlar atsın. Məsələn, mebel istehsalçılarının ixrac məhsullarının sığortalanması, müəyyən güzəştlər tətbiq edilə bilər. Bu isə imkan verəcək ki, daha çox məhsul ixrac edilsin. Düşünürəm ki, artıq o səviyyəyə çatmışıq".

Kaspi ÜÇ ƏSRİN QƏZETİ
Təsisçi
**Global Media Group**
Baş redaktor
**İlham Quliyev**
Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Könül Cəfərli, Sevinc Abbasova, İlhamə Əbülfət, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**
Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**
Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**
Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 858
Tiraj: 2250
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.



## SOCAR və “ACWA Power” əməkdaşlıq edəcəklər

Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) ilə Səudiyyə Ərəbistanının “ACWA Power” şirkəti arasında Yaşıl gübrələrlə bağlı əməkdaşlıq Sazişi imzalanıb.

“Report”un SOCAR-a istinadən verdiyi məlumata görə, sənədi SOCAR-ın vitse-prezidenti Anar Məmmədov və “ACWA Power” şirkətinin Hidrogen üzrə qlobal rəhbəri və vitse-prezidenti Driss Berraho imzalayıblar.

Tədbirdə 2 fevral 2023-cü il tarixində şirkətlər arasında Azərbaycanda dənizdə və quruda külək, günəş və yaşıl hidrogen kimi bərpa olunan enerji, həmçinin onlarla əlaqəli digər potensial layihələrin birgə işlənməsinə dair Əməkdaşlıq haqqında Sazişin imzalandığı məmnunluqla qeyd olunub.

Bu xüsusda yeni imzalanan sənədin “Aşağı karbonlu / Yaşıl Gübrə” layihəsi çərçivəsində yaşıl gübrələrin (əsasən karbamid olaraq) potensial istehsalı və sonrakı satışı üzrə əməkdaşlığı nəzərdə tutduğu qeyd edilib.

Sazişə əsasən, “ACWA Power”in “Aşağı karbonlu / Yaşıl Gübrə” layihəsinin bərpa olunan enerji və yaşıl hidrogenin istehsalına aid olan hissələrində aparıcı rol oynayacağı vurğulanıb.

# BU İL KEÇİD BALLARI NECƏ OLACAQ?



**Elşən Qafarov:** “Ötən ilə nisbətən bu il abituriyentlərin sayında azalma müşahidə olunmur, lakin ali təhsil müəssisələrinin qəbul sayında artım var. Bu isə keçid ballarının çox artırılmasına imkan verməyəcək”.

Ali məktəblərə qəbul imtahanlarının ilk mərhələsinin nəticələri uzun illərdən sonra bir çoxumuzun üzünü güldürdü. Belə ki, əvvəlki illərlə müqayisədə qəbul imtahanının ilk mərhələsində abituriyentlərin göstəriciləri, toplanılan balların yüksək olması ilə seçildi. Bu amil indi qəbul ballarının artacağına dair müzakirələrə yol açıb.

### HANSI İXTİSASLAR ÜZRƏ BALLAR QALXACAQ?

“Qəbul yerlərinin artması keçid ballarının çox qalxmasına imkan verməyəcək. Ötən ilə nisbətən bu il abituriyentlərin sayında azalma müşahidə olunmur”. Bunu son həftələrdə keçirilən buraxılış imtahanlarında şagirdlərin yüksək nəticə əldə etməsinin qəbul imtahanlarında keçid ballarına mümkün təsirini Oxu.Az-a şərh edərkən təhsil üzrə ekspert Elşən Qafarov bildirib.



Elşən Qafarov

Ekspertin sözlərinə görə, ümumilikdə, bu il buraxılış imtahanında 53 nəfərin maksimal bal toplaması, nəticə və səviyyələrin bir il öncəki ilə müqayisədə bu qədər yüksəlməsi bəzi suallar doğurur. Məsələn, ola bilər ki, builki suallar nisbətən asan olub: “Nəticələrin yüksək olması, məntiqlə, keçid ballarının artmasına gətirib çıxara bilər. Yüksək bal toplayanların bir çoxu tibb və hüquqşünaslıq ixtisaslarını seçdiyi üçün adətən, burada keçid balı yuxarı olur. Həmçinin, informasiya mühəndisliyi, kompüter mühəndisliyi, robototexnika ixtisasları da populyardır və burada da eyni halı gözləmək olar”.

### ABİTURİYENTLƏRİN SAYINDA AZALMA MÜŞAHİDƏ EDİLMİR

“2022-26-cı illərin iqtisadi inkişaf konsepsiyası”na uyğun olaraq, əvvəllər ali məktəblərə ildə 45 min tələbə qəbul olunurdusa, 2023-24-cü tədris ilində bu say 56 minə çatıb. 2024-25-ci tədris ili üçün 66 min, 2025-26-cı ildə isə 75 min nəfərin tələbə adı qazanacağı gözlənilir. Ötən ilə nisbətən bu il abituriyentlərin sayında azalma müşahidə olunmur, lakin ali təhsil müəssisələrinin qəbul sayında artım var. Bu isə keçid ballarının çox artırılmasına imkan verməyəcək”, - ekspert bildirib.

### QARABAĞ UNİVERSİTETİNDƏ TƏHSİL ALMAQ İSTƏYƏN ÇOX OLACAQ

Elşən Qafarov, həmçinin, bu il Qarabağ Universitetinə aparılacaq qəbula da toxunub: “Qarabağ Universiteti müasir şərtlərə cavab verdiyi üçün hesab edirəm ki, buraya qəbul olmaq istəyən tələbələrin də sayı çox olacaq. Ancaq yeni ixtisasların açılmasına baxmayaraq, hər hansı güzəşt ediləcəyini gözləmirəm, habelə keçid balları da yüksək ola bilər”.

# MƏŞHUR İDMAN VƏ ƏYLƏNCƏ KANALLARI “CİTYNET”DƏ!

Ölkənin qabaqcıl internet provayderi “CityNet” Azərbaycanda ilk dəfə olaraq dünyanın məşhur TV platformaları ilə əməkdaşlığa başladı. Yeni əməkdaşlıqlar nəticəsində “CityNet” “Blu-TV”, “Canal+Group” və “Setanta Sports”a daxil olan kanalları Azərbaycana gətirir.

Artıq mart ayından etibarən “CityNet” müştəriləri Türkiyə istehsalı eksklüziv məzmunları və məşhur kino ulduzlarının çəkildiyi serialları “Blu-TV Play1” kanalından ödənişsiz izləyir.

“CityNet”in “İnternet+TV” paketinə qoşulan müştəriləri tamamilə ödənişsiz şəkildə “Dizi”, “Filmbox”, “FilmBox Arthouse”, “FunBox UHD”, “Fast&FunBox”, “DocuBox”, “Gametoon”,




“360 TuneBox” və “FightBox” kanallarını izləyə bilərlər. Bu kanallar “Canal+Group”a daxil “SPI International” ilə əldə olunan razılaşma çərçivəsində “CityNet”in TV yayımı xidmətinə daxil edilib. Bu kanallarda müştərilər Hollivud kinoları, sənədli filmlər, Türkiyə istehsalı seriallar, müxtəlif əyləncəli verilişlər, oyunlar izləyə və fərqli janrlarda musiqilər dinləyə bilərlər.

Dünyanın top futbol liqalarını, NBA, F1 kimi mühüm idman yarışlarını, eləcə də, böyük tennis turnirlərini yayımlayan “Setanta Sports” kanalları da artıq “CityNet” istifadəçiləri üçün aktivdir. “Setanta Sports” və digər idman kanallarını («Футбол», «Матч» və s.) əhatə edən paketə qoşulma haqqı 2 AZN təşkil edir. Mövcud “CityNet” müştəriləri isə bu paketdən ilk ay ödənişsiz yararlana bilərlər.

“CityNet” yüksək sürətli sabit internet, ev telefonu xətti və rəqəmsal TV (120 HD kanal olmaqla, 240-dan çox TV kanal) xidmətləri təqdim edən və daim inkişaf edən internet provayderidir. Qoşulma və ya ətraflı məlumat üçün www.citynet.az saytına keçid edə və ya *1177 ilə əlaqə saxlaya bilərsiniz.

QEYRİ-ADİ İSTİ, İNANILMAZ DƏRƏCƏDƏ MİNERALLARLA ZƏNGİN SULARIN CAZİBƏSİ

# ADAMI BATIRMAYAN DƏNİZ

Ölü dənizin İordaniya sahili unikal iqlim qoruğunda yerləşdiyi üçün təbii müalicəvi kurort hesab olunur. Bura çox sakit və az məskunlaşılan yerdir. Suyun və müalicəvi palçığın unikal xüsusiyyətləri buranı bütün dünyada tanınan sağlamlıq mərkəzinə çevirib.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

İordaniya, Fələstin və İsrail sahillərini yuyan "Ölü dəniz" dünyanın ən füsunkar yerlərindən hesab olunur. Ölü dənizdə həmişə yaxşı isti havanın - ildə 330 günəşli günün olması hər mövsüm özünə dünyadan saysız-hesabsız turist cəlb edir. Bu mənada İordaniya sakinləri şanslıdırlar: onların heyrətamiz təbii cazibəsi var. Əslində bu su hövzəsi - göldür, böyüklüyünə görə dəniz adı alıb.

Ölü dənizin İordaniya sahili unikal iqlim qoruğunda yerləşdiyi üçün təbii müalicəvi kurort hesab olunur. Bura çox sakit və az məskunlaşılan yerdir. Suyun və müalicəvi palçığın unikal xüsusiyyətləri buranı bütün dünyada tanınan sağlamlıq mərkəzinə çevirib. Sahil boyu uzanan hotellərin müasir müalicə, reabilitasiya və kosmetoloji mərkəzləri var. Bəzi hotellərdə dəri xəstəliklərinin müalicəsi üçün klinikalar fəaliyyət göstərir. Bu bölgədəki demək olar ki, hər şey müalicəvidir: duz, palçıq, qaynar qaynaqlar...

Bu ölkəni çimərlik tətili üçün gözə alan turistlər rahat qumlu və ya qayalı çimərliklər və sakit atmosfer üçün Qırmızı dəniz sahilini seçirlərsə, sağlamlıqları üçün məhz Ölü dənizə üstünlük verirlər. Qeyri-adi isti, inanılmaz dərəcədə minerallarla zəngin sular qədim dövrlərdən bəri padşahlar, imperatorlar, tacirlər və zəvvarlar üçün olduğu kimi bugünkü xarici turistlər üçün də cəlbedicidir. Kral Herodun, gözəl Misir Kraliçası Kleopatranın, Saba imperatorluğunun füsunkar kraliçası Belkisin, hətta Süleyman Peyğəmbərin bu dənizin sularında çimib, sahilində günəş vannası qəbul etməsi əhali arasında rəvayət kimi danışılır.

## "QATİL" DƏNİZ

Ölü dəniz turları İordaniyanın turistik mərkəzlərinə təşkil edilən turlar içərisində ən bahalısıdır: 250 ABŞ dolları. Amma qaldığın hotelin dəstəyi ilə nisbətən ucuz qiymətə - 200 dollara da özəl tura qoşulmaq mümkündür. Təbii ki, hər bir turist üçün coğrafiya dərslərindən adını eşitdiyi, efirlərdən gözəlliyini izlədiyi bu möcüzəvi dənizi gözlə görmək, sularında yuyunmaq zövqü əvəzolunmazdır.

Ölü dəniz Aqaba şəhərindən 350 km məsafədə yerləşir. Ölü dəniz dünyanın ən duzlu dənizi hesab edilir: "Dənizin suyunun bir litrində 270 qram duz var. Ölü dənizin sahilində atmosfer təhlükəli ultrabənövşəyi şüaların qarşısını alır. Bu da sağlamlığınıza zərər vermədən uzun müddət günəşdə qalmağa imkan verir", - deyə bizi Ölü dəniz turuna müşayiət edən sürücü-bələdçimiz yol boyu məlumat verir.

Zaman-zaman bu dənizə müxtəlif adlar verilib: Lot dənizi, Şərqi dəniz, Asfalt dəniz və s. Amma göründüyü kimi, hələ lap qədimlərdən bu su hövzəsini insanlar haqlı olaraq "Ölü dəniz" adlandırıblar. Suyunda heç bir canlı olmadığından bu su hövzəsi belə qorxunc ad alıb. Bələdçi izah edir ki, bu cür duzlu suda ancaq ən nadir mikroorqanizmlər yaşaya bilir: "Digər canlıların duzlu suda yaşaması mümkün deyil. Bu suya düşən balıqlar həmin andaca ölürlər və onların duzla örtülmüş cəsədləri suyun üzünə çıxır. Buna görə, yəhudi dilində bu dəniz "Qatil dəniz" də adlanır. Dənizin duzlu olmasının səbəbi su hövzəsinə tökülən çayların tərkibində duzun çox olmasıdır. Dənizin isə heç bir axarı yoxdur. Dəniz suyunun çıxarı ancaq buxarlanmadır. Su buxarlanarkən tərkibindəki duz dənizdə qalır. Neçə minilliklərlə dənizin dibində yığılıb qalan duz dənizi ölü bir hövzəyə çevirib".

## TƏBİƏTİN BİR MÖCÜZƏSİ

Dənizin sahilində çoxlu turist gözə dəyir. Hər şeyi bilmək həvəsində olanlar təbiətin bir möcüzəsi olan bu dənizi yaxından seyr etməyə can atır, hətta soyuq havada belə dənizin "adamı batırmayan" suyuna baş vuranlar da var. Bəli, bu dənizdə adam batmır. Ona görə də Ölü dənizdə üzənlərin suda qalmaq üçün heç bir səy göstərmələrinə ehtiyac yoxdur. Dənizin suyu həddən artıq duzlu olduğu üçün hər kəs suyun üzərində uzanaraq sərbəst, suya batmadan kitab, qəzet, jurnal oxuya bilir. Su həssas dərilərə tez təsir etdiyindən dənizdə çox qalmaq olmur. Turizm mövsümü aprel ayından başlayır.

Ölü dənizin əsas cazibəsi isti, sakitləşdirici, çox duzlu su və palçıqdır. Dəri və oynaqların müxtəlif xəstəliklərinin müalicəsi üçün bu sahillərə hər il milyonlarla insan üz tutur.













## BAXIMSIZ ÇİMƏRLİKLƏR DƏ GÖZƏ DƏYİR

Bütün sahillərdə olduğu kimi burada da bahalı hotellərə aid pullu çimərliklərlə yanaşı, ictimai və baxımsız çimərliklər də gözə dəyir. İordaniyada turistlər üçün qiymətlər baha olduğundan bir çox qonaqlar ictimai çimərliklərə üstünlük verirlər. Ölü dənizin sularının sahilə yaydığı ağappaq duzlar isə sənaye, kənd təsərrüfatı və təbabətdə istifadə olunur. "Ölü dənizdə 26 vacib mineral var ki, onlardan on ikisi dünyanın heç bir başqa dənizində və ya okeanında yoxdur. Bəziləri özünəməxsus keyfiyyətlərə malikdir, məsələn, rahatlıq hissi verir, dərini qidalandırır, qan-damar sistemini aktivləşdirir, revmatik xəstəlikləri və metabolik pozğunluqları sağaldır, stress müqaviməti üçün vacibdir", - deyə bələdçimiz məlumat verir.

Mağazalarda, suvenir dükanlarında satılan duzların və minerallardan hazırlanan kosmetik vasitələrin qiyməti də ucuz deyil: miqdarından asılı olaraq 10-100 dinar (27-550 AZN) arası dəyişir. Bu, kosmetik vasitələr dünyanın ən bahalı vasitələri hesab olunur.

## ÖLÜ DƏNİZ YOX OLA BİLƏR

Bələdçimiz son illər Ölü dənizin səviyyəsinin aşağı düşməsindən narahatlığını da bildirdi: "Ölü dənizin problemi qlobal iqlim dəyişikliyindən qaynaqlanmır. Çünki Ölü dənizin yeganə mənbəyi olan İordan çayından hazırkı dövrdə daha çox istifadə edirlər. Su əvvəlki illərlə müqayisədə daha çox israf olunur. Həmçinin, Ölü dənizdən bir çox özəl şirkətlər də minerallar çıxarırlar. Hər il dəniz bir metr aşağı enir. Son illərdə bu proses daha da güclənib. Bu gedişlə Ölü dəniz müəyyən müddətdən sonra yox ola bilər. Bu isə ölkənin iqtisadiyyatına, turizminə böyük problemlər yaradar. İordaniya hökuməti bu barədə ciddi düşünür".





# YAZ GƏLDİ, ALLERGİYA DA KÜKRƏDİ

Həkim məsləhəti olmadan allergiyaya qarşı burun spreylərindən davamlı istifadə həyatımızı təhlükəyə atmaq deməkdir. Bu spreylərin bəzilərinin hətta 2-3 gündən artıq istifadə edilməsi də qadağandır.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Yazın gəlişi ilə əlaqədar bir çox insanlarda asqırma, öskürmə kimi allergik reaksiyalar müşahidə edirik. Bu şəxslərin əksəriyyəti daima yanında sprey gəzdirir. Bir müddət sonra allergiya bitmiş olsa da, əlamətləri qalmaqda davam edir.

### SİMPTOMLAR ALLERGİYAYA AİD OLMAYA BİLƏR

Allerqoloq Ramin Nərimanın sözlərinə görə, əslində yaz allergiyası deyilən xəstəlik yoxdur. Bu hallar allergik rinit, yaxud astmanın başlanğıc dövrüdür. Bu səbəbdən məlum şikayətləri olan şəxslər mütləq allerqoloqa müraciət etməli, problemlərini dəqiqləşdirməlidirlər: "Hansı bitkilərin tozlarına qarşı allergiya mövcuddursa, ona uyğun müalicə təyin edilməlidir. Allergiya olub-olmadığını dəqiqləşdirmək lazımdır. Amma bizdə asqıran kimi adını allergiya qoyurlar. Simptomlar allergiyaya aid olmaya da bilər".

### TOZLANMA BAŞA ÇATDIQDA XƏSTƏLİK DƏ BİTİR

R.Nəriman bildirdi ki, hər insanda allergiya müxtəlif zamanlarda baş verə bilər: "Bitkilərin tozlanması əsasən yazda baş verir. Bu səbəbdən, müxtəlif bitkilərə qarşı allergiyası olan insanlar həmin dövrdə kəskin şəkildə əziyyət çəkirlər. Amma digər mövsümlərdə tozlanan bitkilərə qarşı allergiyası olan şəxslər də mövcuddur. Yayda tozlanan taxıl bitkilərinə qarşı kiminsə allergiyası varsa, bu, özünü həmin fasilədə göstərir. Ona görə də sadəcə yaz allergiyası demək doğru deyil. Bitkinin tozlanması başa çatdıqda dərman istifadə edib-etməməyimizdən asılı olmayaraq allergiya başa çatır. Bu problem hər il təkrarlanır".

### BU ZAMAN MÜALİCƏ EFFEKT VERMİR

Allerqoloqun fikrincə, həkim məsləhəti olmadan allergiyaya qarşı sprey istifadə etmək həyatımızı təhlükəyə atmaq deməkdir: "Burun spreylərinin növləri çoxdur. Əksəriyyəti heç allergiya zamanı istifadə olunmamalıdır. Hətta bəzisinin 2-3 gündən artıq istifadə edilməsi qadağandır. Xəstələr həkim məsləhəti olmadan aptekdən istənilən spreyi alırlar və istifadə edirlər. Bəzən o dərəcədə çox istifadə edirlər ki, dərmandan asılılıq yaranır. Bu zaman əlavə təsirlər, problemlər üzə çıxır. İnfarkt, insult yaradanları da mövcuddur. Gözün dərinliyinə təsir edir, boğulma halları yaşanır. Bu xəstələr sonradan allergiya ilə bağlı müalicə aldıqda onlarda dərmana qarşı dözümlülük olur. Bu zaman müalicə effekt vermir. Çünki zamanında düzgün müalicə almayıblar. Ona görə də sprey almamışdan öncə mütləq həkimə müraciət etmək lazımdır".



Ramin Nəriman



Elnur Əkbərov

## VAXTINDA MÜALİCƏ ALINMALIDIR

Otorinolarinqoloq Elnur Əkbərov isə dedi ki, xəstəliyə qarşı müalicə mövsüm başlamadan olmalıdır: "Orqanizmimizdə baş verən proseslər özünü allergik rinit, allergik dermatit, allergik konyunktivit və daha fərqli formalarda göstərə bilər. Allergik rinit mövsümi xarakter daşıyır, yaz-payız, xüsusən də yaz aylarında olur. Amma il boyu allergik rinit də mümkündür. Xəstəliyin növündən asılı olaraq ya mövsümi, ya da il boyu müalicəyə ehtiyac var. Mövsümi allergik rinitdə pasiyentlər hər il yaz və payız başlamadan dərman müalicəsi almalıdır. Ortalama müalicə 20 gündür. Mövsüm başladıqdan sonra müalicə gedərsə, effekti daha zəif olur. Yəni allergik təzahürlər azalır, lakin burun rahatlamır. Ona görə də müalicə vaxtında başlamalıdır. Allergik rinit fonunda inkişaf etmiş poliplərdən əziyyət çəkən şəxslər də ola bilər. Onlar əməliyyat olunmalı və dərman müalicəsi almalıdır. Amma əməliyyat problemi həll etmək üçün deyil, məqsəd dərman üçün burunda uyğun şərait yaratmaqdır".

### "ALLERGİK RİNİTİN BAŞQA MÜALİCƏ ÜSULU YOXDUR"

Otorinolarinqoloqun sözlərinə görə, allergiyanın müalicəsi yalnız dərmanlar və spreylərdir: "Allergik rinitin müalicəsində sadəcə burun spreyi istifadəsi yanlışdır. Ən çox istifadə olunmalı tərkibində stereoid və antistamin molekulları olan burun spreyləridir. Bunlardan əlavə antistamin qrupuna aid tabletlər də yazılmalıdır. Günümüzdə allergik rinitin başqa müalicə üsulu yoxdur. Digər mövcud üsullar yalnız köməkçidir. Burun spreyləri asılılıq yaratmır, amma istifadəsi məcburidir. Dərmanlar mütəmadi istifadə olunmalıdır".

Həkim həmçinin bildirdi ki, spreylərin istifadəsi zamanı yan təsirlər də ola bilir: "Yan təsirlər burunda quruluq, xırda qanaxmalar şəklində özünü göstərir. Bu səbəbdən spreylər nəzarət altında istifadə edilməlidir. Müalicə öncəsi və sonrasında həkim nəzarəti mütləqdir".

## "YAZ ALLERGİYASININ QARŞISINI ALMAQ ÇOX ÇƏTİNDİR"



Pulmonoloq Əsəd Beydullayev qeyd etdi ki, bəzən dərmandan istifadə etməmək daha ağır fəsadlar yaradır: "Xalq arasında deyirlər ki, dərmanlar asılılığa səbəb olur. Amma bu, tələbatdır. Çünki xəstə yalnız dərman qəbul etdikdə özünü yaxşı hiss edir. Allergik astma olan hamilə qadınlar da bəzən uşağa zərər verəcək deyə, dərmanlardan istifadə etmirlər. Amma bu, yanlışdır. Dərmanlardan vaxtı-vaxtında düzgün qaydada istifadə etmək lazımdır. Çalışmaq lazımdır ki, dərman dayandırılmasın. Çünki bu zaman ana bətnindəki uşaqda da müəyyən xəstəliklər yarana bilər".

Pulmonoloq bildirdi ki, burun tutulmalarında nazal spreylər, boğaz yollarında inqalyasiya və bronxlar üçün dərmanlardan istifadə olunur: "Yaz allergiyasının qarşısını almaq çox çətindir. Çünki havada uçan və gözlə görünməyən xırda hissəciklərdən, bitki tozlarından qorunmaq mümkünsüzdür. Çalışmaq lazımdır tozlanmanın daha aktiv olduğu küləkli havalarda və günorta saatlarında mümkün qədər çölə çıxılmasın. Ağacların və çiçəklərin çox olduğu yerlərdən uzaq durun. Dərmandan daha az istifadə etmək üçün bunlara əməl etmək lazımdır".

# “MƏN OLMASAM SİZ NƏ EDƏCƏKSİNİZ?”

Onlarla tamaşaya quruluş verən rejissor, teatrlarda səhnəyə çıxan, filmlərdə və teletamaşalarda uğurla çəkilən aktyor Həsən Əbluc yaddaşlarda yaşayır. Qızı Elnaz Əbluc atası ilə bağlı xatirələrini bölüşür.







TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Çoxları onu gözəl bədii qiraət ustası kimi tanıyır. Filmlərin dublyajını da onun səsi olmadan təsəvvür eləmək çətindir. Amma Həsən Əbluc həm də onlarla tamaşaya quruluş verən rejissor, teatrlarda səhnəyə çıxan, filmlərdə və teletamaşalarda uğurla çəkilən aktyor olub. Həsən Əbluc deyəndə, daha çox göz önünə rejissor Ramiz Həsənoğlunun “Təbii ki, bu rolda çox populyar, sevilən bir aktyor çəkilməli idi”, - deyə Sabit Mirzə roluna dəvət etdiyi “Qatarda” tamaşası gəlir...

Həsən Əbluc şəxsi həyatında da qayğıkeş ata, sədaqətli həyat yoldaşı, sadiq dost, etibarlı qardaş olub.

Aktyorun 22 aprel - doğum günü ərəfəsində söhbətləşdiyimiz qızı Elnaz Əbluc “atamla bağlı xatirələrin hamısı mənim üçün əzizdir. Çünki o, çox qayğıkeş olub. Ondan sonra mən elə bir qayğını demək olar ki, heç kimdən görmədim”, - deyə kədərlə bildirir: “Bu, söz xətrinə deyilmir. İndi onun üçün anamın da, mənim də az qala burnumuzun ucu göynəyir”.

**“BİZ UŞAQSIZ DA YAŞAYARIQ...”**

E.Əbluc atası ilə bağlı heç zaman danışmadığı bir xatirəsini bölüşür: “Ailənin yeganə uşağı olmuşam. Məndən öncə doğulan uşaqlar həyatda qalmayıb. Hətta anam məni dünyaya gətirəndə atam ona məktub yazıb: “Əgər alınmırsa, biz uşaqsız da yaşayarıq...” Baxmayaraq ki, o, uşağının olmasını çox istəyib, ancaq anama təsəlli üçün belə bir məktub yazıb. Anam deyir ki, o məktubu oxuyanda xəstəxanada hamı ağlayırdı. Xəstəxanadan gələndə atam sevindiyindən uşaq arabasının içərisini konfetlə doldurub. O, məni hədsiz çox istəyirdi. Biz ata-övlad münasibətindən savayı dost idik. Hamı deyirdi ki, o, çox ciddi adamdır, yəqin sənə çox şeyi qadağa edər, amma atam çox müasir idi. Bizim yaxşı geyinməyimizi istəyirdi. Anamda bir az astmatik problemlər olduğu üçün hər il aprel-may aylarında o bizi 3 aylıq Moskvaya göndərirdi. İl boyu qazandığı pulu anama verib “özünüzə nə istəyirsiniz alın” deyirdi. Sonra özü də yanımıza gəlirdi, amma çox qala bilmirdi”.

**ÜZDƏ OLMAYAN AKTYORLARIN KƏŞFİ**

“Atamın uşaqlığı asan keçməmişdi”, - deyə E.Əbluc davam edir: “Onun böyük qardaşı Əli inqilabçı olmuşdu. 18 yaşında ona edam hökmü kəsildiyi üçün bütün ailə Təbrizdən Bakıya qaçmışdı. Onda atamın 4 yaşı varmış. Sonra Bakıda orta məktəbi bitirmiş, institutda həm aktyorluq, həm də rejissorluq üzrə oxumuşdu. Sənətini hədsiz çox sevirdi. Tamaşalara quruluş verəndə daha çox üzdə olmayan aktyorlarla işləməyə üstünlük verirdi. Məsələn, “Aydın” tamaşasında Gültəkin roluna teatra yeni gələn Məleykə Əsədovanı dəvət etmişdi. Məleykə xanım mənim verilişimdə danışdı ki, Həsən Əbluc rolu mənə verəndə məəttəl qaldım...”

**“SƏNDƏN YAXŞI MONTAJ REJİSSORU OLAR”**

“Mən orta məktəbdə oxuyanda kreativ işlər axtarırdım. “Fotoreportyor olacağam”, “ofisdə işləyəcəyəm” və s. deyə xəyallar qururdum”, - deyə Elnaz xatırlayır: “Atam da “bir seçim etmək, qərara gəlmək lazımdır” deyirdi. Nənəm həkim olduğu üçün o, mənim həkim olmağımı istəyirdi. Atam isə deyirdi ki, səndən yaxşı montaj rejissoru olar. Çünki mən iki kasetli maqnitofonlarda musiqiləri bir-birinə calayırdım. Ancaq bu sənəti seçmək haqda düşünmürdüm, etiraz edirdim. Tale elə gətirdi ki, atam dünyasını dəyişəndən sonra mən bu sənəti sevdim, montaj rejissoru oldum. Elə bil onun ruhu məni bu sənətə çəkdi”.



Elnaz Əbluc

## “SNAYPER DUBLYAJ EDƏN”

“Atamın səsindən dublyajda çox istifadə olunurdu, amma kinoya o qədər dəvət olunmurdu. Amma filmlərin səslənməsində onun səsi olmadan keçinmək mümkün deyildi. “Yaramaz” filmində gürcü aktyoru Mamuka Kikaleyşvilinin səsləndirməsi də atama məxsusdur. Aktyor filmdən sonra “mən özüm belə bacarmazdım”, - deyə etiraf edib. Səs operatoru Əsəd Əsədov atama “snayper dublyaj edən” deyirdi”.

**DÜNYASINI DƏYİŞƏNDƏ 51 YAŞI VARDI**

Həsən Əbluc ömrünün sonuna yaxın “Ezop” tamaşasını və “Anamın kitabı”nı hazırlayırdı. “Atam bir aktyorla “Ezop” tamaşasını hazırlamışdı. Ezop rolunu da özü oynayacaqdı”, - deyə qızı xatırlayır: “Bu tamaşa Heydər Əliyev Sarayında nümayiş olunacaqdı. Amma tamaşanı oynamaq qismət olmadı. Gənc Tamaşaçılar Teatrında sonuncu quruluş verdiyi “Anamın kitabı”nın premyerası da baş tutmadı. Premyeraya 20 gün qalmış atamın səhnədə ürəyi tutdu. Hadisə məşq prosesində oldu. Xəstəxanaya çatdırsalar da, atamı xilas etmək mümkün olmadı. Atam üzdən sakit görünürdü, amma çox emosional və əsəbi idi. Məşqləri də emosional aparırdı. Məni də bəzən özü ilə məşqlərə götürürdü. Onun əsəbiliyi ilə bağlı aktyorlar arasında narazılıqlar olduğunu eşidirdim. Mən bu barədə atama deyirdim. “Mən məşqdən sonra onlarla dostam, amma bu, mənim iş prinsipimdir”, - deyə izah edirdi.

Həsən Əbluc dünyasını dəyişəndə 51 yaşı vardı. Ürəyində isə quruluş vermək istədiyi nə qədər tamaşalar və oynamaq istədiyi rolların arzusu... “Atam Şahmar Ələkbərov və Tariyel Qasımovla yaxın dost idi. Şahmar Ələkbərovla ailəvi yaxın idik. Şahmar əmi dünyasını dəyişəndə atam onun məzarı başında ağlayaraq: “Tezliklə görüşərik...” demişdi. İki il sonra atam rəhmətə getdi...”

Elnaz deyir ki, atası dünyasını dəyişəndən sonra onlar üçün asan olmayıb. Ailənin yükünü anası ilə özü çəkməli olub: “Atam vəfat edəndə mənim 16 yaşım vardı. Anam da bilmirdi ki, məsələn, çörək harada və neçəyə satılır. Bütün qayğılar atamın üzərində olmuşdu. “Mən olmasam siz nə edəcəksiniz?” - deyə həmişə narahatlığını ifadə edirdi”.

Elnaz atasının adının bir aktyor və rejissor kimi yaddaşlarda yaşamasından qürur duyur: “Yaxşı ki, atam insanların yaddaşında yaşayır. Atamın ifasında Bəxtiyar Vahabzadənin “Yaşdan gileyliyəm” şeirini “Youtube”da paylaşdım. O qədər xoş rəylər yazıldı ki... Hər il doğum və anım günləri haqqında verilişlər hazırlanır, xatirə gecələri keçirilir. Bu, bir övlad kimi məni çox sevindirir...”

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
20 APREL ŞƏNBƏ 2024



**Bundesliqanın qalibi olan "Bayer" bu mövsüm daha iki titul əldə etməyə çox yaxındır. Komanda Almaniya Kubokunda finala yüksəlib. Xabi Alonsonun komandasının Avropa Liqasının qalibi olmaq şansı da var.**

# BUNDESLİQANIN MƏĞLUBİYYƏTSİZ ÇEMPİONU

Almaniya Bundesliqasında sona beş tur qalsa da, çempion artıq bəllidir. Leverkuzen "Bayer"i "Bavariya"nın hegemonluğuna son qoyaraq 119 illik tarixi ərzində ilk dəfə bu titula yiyələnib. Xabi Alonsonun komandası 29-cu turda "Verder"i darmadağın etməklə (5:0) Almaniyanın ən güclüsü adını qazanıb.

### MƏĞLUBİYYƏTSİZ ÇEMPİON

"Bayer" Bundesliqada 29 matçın 25-də qalib gəlib və yalnız dörd oyunda heç-heçə edib. Ümumiyyətlə, komanda bu mövsüm nə Almaniya kubokunda, nə də Avropa Liqasında məğlubiyyət üzü görüb. Bundesliqada qalan beş görüşə nə qədər əhəmiyyət verib-verməyəcəyindən asılı olaraq, leverkuzenlilərin mövsümü yenilgisiz bitirib-bitirməyəcəyi dəqiqləşəcək. Hələlik komandanın məğlub olmadan çempionluq əldə etdiyini demək mümkündür. Daha beş qarşılaşma isə onları "Arsenal" və "Yuventus"la – XXI əsrin məğlubiyyətsiz çempionları ilə eyni siyahıya qoyacaq. Yeri gəlmişkən, artıq 45 oyundur, uduzmayan "Bayer" bu göstəricidə Turin klubunu geridə qoyub. Əsrimizdə başqa heç bir komanda bu qədər uzun müddət yenilgisiz duruş gətirə bilməyib. Yalnız "Yuventus" ardıcıl 44 qarşılaşmada məğlubiyyət üzü görməmişdi.

### UĞURUN MEMARI

"Bayer"in nağıl kimi keçirdiyi mövsümdə əsas diqqətlər koman-danın baş məşqçisi Xabi Alonsoya yönəlib. Futbolçu kimi saysız-hesabsız uğurları olan ispaniyalı məşqçilik karyerasına "Real Madrid"in U-14 koman-dasında başlayıb. Daha sonra "Real Sosyedad"ın B komandasını çalışdıran mütəxəssis kollektivi Sequndaya yüksəltməyi bacarıb. Lakin 2022-ci ilin mayında Xabi sözügedən klubu tərk edib. Oktyabrda isə "Bayer" macərası başlayıb.

Alonso Bundesliqa klubunun "sükanı arxası"na keçərkən komanda 8 turdan sonra turnir cədvəlində sondan ikinci pillədə idi. Lakin o, komandanı yekunda 6-cı etməyi bacarıb. Avropa Liqasında isə "Bayer" 21 ildən sonra yarımfinala yüksələ bilib. Yay transfer periodunda komandasına sevimli 3-4-3 taktiki düzülüşünə uyğun bir neçə oyunçu cəlb edən Xabi Alonso bu mövsümkü fantastik oyunla tarixi uğura imza atıb. Bu, onun baş məşqçi kimi ilk tituludur. Üstəlik, əksəriyyət bu mövsüm "Bayer"in bütün Avropa liqalarında ən baxımlı futbol oynadığına dair həmfikirdir.

## UĞURLARIN PARLAQ İCRAÇILARI

"Bayer" meydandakı performansı ilə yanaşı klub idarəçiliyi və transfer siyasəti ilə də rəqiblərindən çox üstündür. Bu mövsüm komandaya qoşulanlar arasında Natan Tella, Yonas Hofmann, Viktor Bonifeys və Qranit Caka kimi adlar xüsusilə diqqət çəkir. Lakin Xabi Alonsonun ən çox istifadə etdiyi 11 oyunçunun 8-i onun baş məşqçi təyin edilməsindən əvvəl komandada yer alırdı. Bu, futbolçuların inkişafına Alonsonun nə qədər böyük təsir etdiyinin göstəricisidir. Leverkuzen klubunun tarixi uğur əldə etməsində əsas fiqurlardan biri Florian Virtsin göstərdiyi möhtəşəm performansdır. 20 yaşlı hücumameyilli yarımmüdafiəçi bu mövsüm 29 liqa oyununda da meydanda olub və 9 qol, 10 qol ötürməsilə yadda qalıb. Xabi Alonsonun taktikasında cinah müdafiəçiləri xüsusi rol oynayır. Sol cinah oyunçusu Alexandro Qrimaldo 28 görüşdə 9 qol və 12 məhsuldar ötürmə müəllifi olub. Sağ cinahda oynayan niderlandlı Jeremi Frimponq isə 26 qarşılaşmada 8 qol vurub, eyni sayda assist edib.



## AZƏRBAYCANLI AZARKEŞLƏRƏ TANIŞ KOMANDA

Azərbaycanlı futbolsevərlər Avropanın ən baxımlı futbol oynayan komandalarından birini iki dəfə canlı izləmək şansı qazanıblar. "Qarabağ" Avropa Liqasının qrup mərhələsində "Bayer"lə iki dəfə qarşılaşıb. Səfərdə 1:5 hesablı ağır yenilgiyə baxmayaraq, Ağdam klubu Bakıda kifayət qədər yaxşı oynadığı qarşılaşmanı sonda 0:1 məğlub bitirib. Püşk kollektivləri bir daha 1/8 finalda rəqib edib. Bu dəfə "Qarabağ" daha yaxşı nəticə göstərib. Bakıdakı ilk oyunda 2:0 üstünlük əldə edən Azərbaycan təmsilçisi yekunda son dəqiqə qolu ilə 2:2 hesablı heç-heçəyə üzülüb. Səfərdə də "Qarabağ" hesabda 2:0 irəli keçib. Lakin bu dəfə də son dəqiqə qolları "Bayer"in dadına çatıb və komanda mərhələ keçməyi bacarıb. Bəlkə də, bu mövsüm heç bir turnirdə "Bayer"i "Qarabağ" qədər çətinə salan olmayıb.

## QIZIL HET-TRİK ŞANSI

Bundesliqanın qalibi olan "Bayer" bu mövsüm daha iki titul əldə etməyə çox yaxındır. Komanda Almaniya Kubokunda finala yüksəlib. Həlledici qarşılaşmada onların rəqibi 2-ci liqa klubu "Kayzerslautern" olacaq. "Bayer" bu görüş üçün aşkar favorit hesab olunur. Xabi Alonsonun komandasının daha bir potensial titulu isə Avropa Liqasının qalibi olmaqdır. ¼ finalda İngiltərə "Vest Hem"ini mübarizədən kənarlaşdıran komanda final yolunda "Roma" ilə üz-üzə gələcək. Əsas favorit sayılan "Liverpul" isə "Atalanta"ya uduzduğundan "Bayer"in Avropa Liqasında titul yolu kifayət qədər hamar görünür.